HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 avqust 2016-cı il
№016 (30)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## ZƏKİ LƏVƏND GÜMRÜKÇÜ: TÜRKİYƏ VƏ GÜRCÜSTAN ÇƏTİN BİR COĞRAFİYADA ORTAQ DEMOKRATİK DƏYƏRLƏRİ PAYLAŞAN İKİ ÖLKƏDİR



*Bu günlərdə əməkdaşımız Türkiyənin Gürcüstandakı Fövqaladə və Səlahiyyətli səfiri cənab Zəki Ləvənd Gümrükçü ilə görüşərək son dövrlərdə Türkiyədə baş verən hadisələrə və Türkiyə-Gürcüstan münasibətlərinə aydınlıq gətirməyi xahiş edib.*

**H. B. – Hörmətli Səfir, müsahibəmizə bir neçə həftə əvvəl Türkiyədə bir zəlzələ təsiri yaradan 15 iyul hadisələri ilə əlaqədar mövzuya aydınlıq gətirərək başlamanızı xahiş edirik. 15 iyulda Türkiyəni vətəndaş müharibəsinə çəkərək bu qarışıqlığı yaradanların məqsədi nə idi?**

Z. L. G. – 15 İyulda hamınızın bildiyi kimi Türkiyədə xain bir çevriliş cəhdi reallaşmışdır. Bu cəhdi edənlər Türk Silahlı Qüvvələri içində birləşmiş terrorist bir qrupun üzvləridir. Bir başqa deyimlə, əsgər formasına girmiş terroristlərdir. Demokratik yollarla seçilmiş hökuməti yıxaraq, dövləti ələ keçirmək məqsədi güdən bu terror cəhdnin Fəthullahçı terror təşkilatı (FETÖ) tərəfindən reallaşdırıldığı, çevriliş gecəsi əsir alınan Baş qərargah rəisindən tutmuş üsyançılara qədər hadisələrə qarışan hər kəsin verdiyi ifadələrdə açıq şəkildə ortaya çıxmışdır.

Dövləti ələ keçərmə hədəfi FETÖ-nün hər zaman əsas məqsədi olmuşdur. Ancaq, bu məqsədinə, 40 ilə yaxın bir müddətdir davam etdirdiyi şəkildə, yəni dövlət təşkilatlarına gizlicə sızmaq yolu ilə çata bilməyəcəyini anlayınca və cəmiyyət təşkilatlarında paralel bir dövlət şəklində meydana gətirdiyi quruplaşmanın aşkarlandığını görüncə, çarəsizliyinin və gözü dönmüşlüyünün bir nəticəsi olaraq belə xain və insanlıqdan uzaq bir çevriliş cəhdinə əl atmışdır.

Xalqın, medianın və siyasətçilərin tanklardan qorxub qaçacağını və beləcə çevriliş cəhdinin müvəffəqiyyətlə başa çatacağını ümid edən bu terroristlər, başda Hörmətli prezidentimiz olmaqla, hökuməti və müxalifəti ilə siyasət dünyamızın qərarlı duruşu, medianın operativ hərəkəti və təbii ki, xalqımızın demokratiyanı müdafiə etmək adına göstərdiyi qəhrəmancasına mübarizə qarşısında özləri bir zərbə yemiş və məqsədlərinə çata bilmədən təslim olmaq məcburiyyətində qalmışlar.

**(davamı 4-5-ci səhifələrdə)**

## GEORGİ KVİRİKAŞVİLİ: BİZ MÜTLƏQ ÖLKƏNİN İNKİŞAFI ƏTRAFINDA BİRLƏŞMƏLİYİK




Gürcüstan baş naziri Georgi Kvirikaşvili avqustun 20-də Marneulidə əhali ilə keçirilən görüşdə bəyan edib ki, bir-birimizlə didişməyə son qoymalı, ölkənin inkişafı ideyası ətrafında birləşməliyik.

Görüşdə baş nazir, “Gürcü arzusu – demokratik Gürcüstan” partiyasının sədri Georgi Kvirikaşvili Marneuli əhalisinə majoritar deputatlığa namizədləri – Ruslan Hacıyev və Tamaz Naverianini təqdim edib.

Hökumət başçısı dörd il ərzində həyata keçirilən köklü dəyişikliklər və gələcək planlara xüsusi diqqət ayırıb.

Baş nazir vurğulayıb: “Biz indi Marneulidəyik, onun Gürcüstanın taxıl anbarı olmasını yaxşı başa düşürük. Kənd təsərrüfatı hər vaxt böyük əhəmiyyət daşıyıb, xüsusilə də Marneuli üçün və qürurla demək olar ki, Gürcüstanda heç vaxt kənd təsərrüfatına bu günkü kimi diqqət ayrılmayıb”.

Georgi Kvirikaşvili müxtəlifliyin və çoxetnikliyin ölkənin əsas zənginliklərindən biri olmasını vurğulayıb.

Xatırladaq ki, Georgi Kvirikaşvili həmin gün Qardabanidə də əhali ilə görüşmüş, “Gürcü arzusu – demokratik Gürcüstan” partiyasından ölkə parlamentinə majoritar deputatlığa namizədləri görüş iştirakçılarına təqdim etmişdir.

## AZƏRBAYCAN XİN-NİN BAŞÇISI AVQUSTUN 29-DA GÜRCÜSTANA RƏSMİ SƏFƏR EDİB



Azərbaycan respublikasının xarici işlər naziri Elmar Məmmədyarov avqustun 29-da Gürcüstana rəsmi səfər edib.

Xarici işlər nazirliyindən verilən məlumata görə, Azərbaycan xarici siyasət idarəsinin başçısı Gürcüstanın baş naziri Georgi Kvirikaşvili, ölkə parlamentinin sədri David Usupaşvili və gürcü həmkarı, xarici işlər nazirliyinin rəhbəri Mixail Canelidze ilə görüşüb.

Gürcüstana səfəri çərçivəsində Elmar Məmmədyarov Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanların xatirəsini anıb və Azərbaycanın ümumimilli lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyub.

Səfər çərçivəsində ikitərəfli və çoxtərəfli formatda Gürcüstanın və Azərbaycanın əməkdaşlığı məsələləri müzakirə olunub.

## QAZAXISTAN, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN DƏMİR YOLLARI YÜK DAŞIMALARININ YENİ ŞƏRTLƏRİNİ TƏKLİF EDİR

Qazaxıstan, Azərbaycan və Gürcüstan dəmir yollarının rəhbərləri öz ərazilərində yüklərin daşınması üçün əlverişli şərait yaratmaq niyyətindədirlər. Şifahi razılığa əsasən metal, taxıl, neft, qaz yüklərinin və konteyner daşınmalarının tarif dərəcələri aşağı salına bilər. Qonşu dövlətlərin dəmiryolçularının bir-birinə təklif etdikləri daşımaların yeni lojistik sxemləri bazarların mənimsənilməsinə də kömək etməlidir.

Azərbaycan dəmir yolları başçısının müavini İqbal Hüseynov bu münasibətlə deyib: “Biz ixrac və idxal mallarının daşınması üçün yaxşı şərtlər təklif etməyə hazırıq. Misal üçün, cari ilin sonunadək biz Gürcüstan dəmir yolu vasitəsilə Türkiyəyə birbaşa keçid açırıq. Beləliklə, sizin Türkiyənin cənub limanlarına, Şimali Afrikaya və ərəb ölkələrinə çıxışınız yaranır”.

SEÇKİÖNCƏSİ CAVABINI AXTARDIĞIM SUALLAR — 2
ALLAHA TƏSLİMİYYƏTİN GÖSTƏRİCİSİ – QURBAN — 3
ZƏKİ LƏVƏND GÜMRÜKÇÜ: TÜRKİYƏ VƏ GÜRCÜSTAN ÇƏTİN BİR COĞRAFİYADA ORTAQ DEMOKRATİK-DƏYƏRLƏRƏ PAYLAŞAN İKİ ÖLKƏDİR — 4
CO BAYDENİN TÜRKİYƏ SƏFƏRİNİN GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ — 5
QLOBAL İSTİLƏŞMƏ VƏ SU PROBLEMİ — 6
ƏYRİQARDA PYEDESTAL MÖVSÜMÜ (evfemizm) — 7
“AZƏRBAYCANFİLM” AZƏRBAYCANLI GƏNC OĞLANLA GÜRCÜ QIZININ MƏHƏBBƏTİNƏ AİD FİLM ÇƏKİB — 8

## SEÇKİÖNCƏSİ CAVABINI AXTARDIĞIM SUALLAR

**Seçkiqabağı kampaniyanın elə yeridir ki, iki göz istəyir tamaşa eləyə. Adam cəmiyyətimizin aşağıdan yuxarı, yuxarıdan aşağı siyasiləşməsinə az qalır çırtıq çalıb oynaya. Nədən ki, kiçik bir məmləkətdə şişirtməsiz-zadsız hər şəhərə bir partiya düşür. Bizim yetkili Mərkəzi Seçki Komissiyamız düz 45 partiyanı qeydiyyatdan keçirib. Nə az, nə çox 20 partiyaya da yox deyib, qeydiyyata salmayıb. Yəni bəlkə də onlara balabanda qandırmaq istəyib ki, ey gözəl partiyalar, siz də gedin gələn seçkilərə qədər hazırlığınızı görün, özünüzə çəki-düzən verin, sıralarınızı genişləndirin və birdəncə ortaya çıxıb, "hopp" edib gəlin hakimiyyətə. Düzdür, bunları MSK dediyimiz qurumun bir sıravi üzvü də ağzından qaçırmayıb. Elə mən öz yanımdan deyirəm ki, bəs deyilmi, cənablar, bu kiçik Vətəni bu qədər siyasi eksperiment meydanına çevirməyiniz? Amma sonra da, bu fikrimdən daşınıram. Nədən daşınıram və ya mən fikrimdən niyə dönürəm, bu başqa bir məsələdir.**

Sizdən söz qırağa çıxmayacağına əmin olduğumdan deyirəm, yoxsa dilimin qıfılını qırıb bir kəlmə danışardımmı? Deyirlər bizim ölkədə partiyaların yağışdan sonra çıxan göbələk sayağı çıxmasının arxasında gizli məqamlar var. Nə bilim deyirlər ki, çoxbilmişlər səsləri parçalamaq üçün belə bir oyun icad ediblər. Mən belə şeyləri çox da bilmədiyimdən susmağa üstünlük verəsi adamam, amma, çifayda, bu qızıl dildə bir sümük yoxdur ki, susa. Nə də dişim bir diş deyil ki, dilimi tutub saxlaya. Nədən ki, olan-qalan dişlərimi bada vermişəm, gedib, yerinə də protez qoydurmuşam, o da dil nədi, heç havanı da tutub saxlamağa qadir deyil.

Dilimin andı var ki, mənim nə siyasətlə, nə də siyasilərlə işim olmayacaq. Bəri başdan da səbəbini deyim ki, mənim aləmimdə siyasət saman altından su yeritməkdir, bu gün dediyini sabah inkar etməkdir. Bunları da qəbul edəcək baş-beyin məndə yoxdur. Nə qədər deyirəm siyasətə qarışmayacam, olmur. Niyəsini də deyim. Məsələn, mərdüməzarın biri istəməsən də səni siyasətə alət edə bilər, siyasi ambisiyalarına qurban verə bilər, sən də qalarsan çabalaya-çabalaya və ya qurbanlıq quzu kimi mələyə-mələyə. Məsələn, biri durduğun yerdə sənə belə bir sual verə bilər ki, qağa, sən kimə işləyirsən? Və ya elə-belə deyirmiş kimi, mızıldana bilər ki, filankəs də müxalifətin adamıdır. Filanın keçən seçkilərdə müxalifətdən, indi iqtidardan olduğunu da vurğulaya bilər. Bu cür sualların, söz-söhbətlərin adamı odsuz-ocaqsız yandırmayacağını düşünürsünüzsə, səhv edirsiniz.

Bu sualları guppuldadanlardan, bu söz-söhbəti çevirib-çevirib təkrarlayanlardan soruşmaq gərəkdir ki, bu iqtidar dediyinizin, müxalifət dediyinizin hərəsi bir qitədən ha gəlməyib, iqtidarı da, müxalifəti də bir Vətənin, bir ölkənin övladları deyilmi, onların arasına Çin səddi çəkməklə, onları bir-birilə düşmən etməkdə məqsədiniz nədir? Hər bir normal insanın, normal vətəndaşın yaşadığı ölkəyə, çörəyini yediyi, suyunu içdiyi Vətənə bir övladlıq borcu olduğunu xatırlatmaq belə yersiz görünür. Hər birimizin – istər müxalifətdən olaq, istər iqtidardan, istər xristian olaq, istər müsəlman, istər gürcü olaq, istər də azərbaycanlı – ümumi Vətənimiz olan Gürcüstanı ağ günə çıxarmaq, dünya birliyində layiq olduğu yeri tutmasına yardım etmək borcumuzdur fikrini dübarə səsləndirməmi qəribliyə salmayaq.

Mən sağlam siyasi rəqabətin, bir-birinin fikrinə hörmət və anlayışla yanaşmanın tərəfdarıyam. Hər kəsin fikrini azad şəkildə ortaya qoymasının nəyi pisdir. Elə demokratiya dediyimiz də bunun tərəfdarı deyilmi? Hərə öz fikrini ortaya qoyur, qabında nə var meydana çıxarır və əlahəzrət xalq da bəyəndiyini, qəbul etdiyini dəstəkləyir. Bax, məsələ bu qədər sadə və bəsitdir. Yoxsa siyasi rəqabətə şəxsi, tayfa, qrup maraqlarından baxdıqda, siyasəti bu maraqları təmin edən mənbə hesab edəndə, əlbəttə, onun iyrəncliyi də ortaya çıxacaq. Və Aristotelin "Politika"sı da bu deyilənləri açmaqda aciz qalacaq. Siyasətə əclaflıqla, yaltaqlıqla, kiməsə yarınmaqla çörək qazanmaq kimi baxanların mövqeyi barədə danışmamaq, susmaq, məncə, danışmaqdan yaxşıdır. Onlara yalnız bunu demək istəyirəm ki, cənablar, bu cür çörək haramdır, yeyilməz. Üstəgəl, siyasət də bir peşədir və bu yolu seçənlər, sıravisindən tutmuş ali eşalonda təmsil olunanına qədər, yüksək əxlaqa malik olmalı, arı yeyib, namusu itə atmamalıdırlar. Siyasət ağlına gələni danışmaq, yetdiyinə yetib, yetmədiyinə bir daş atmaq üçün də deyil. Siyasət, təkrar da olsa deyim, xalqı idarə etmək vasitəsidir və unutmayaq ki, istənilən hakimiyyətin mənbəyi də xalqdır və bunu Konstitusiyamız da təsdiqləyir.

**Sonda hər bir kəsin seçkilərdə fəal iştirakının vacibliyini vurğulamaq istəyirəm. Ölkə prezidenti cənab Georgi Marqvelaşvilinin bu məqsədlə xalqla təmaslarını, vətəndaşları kimə səs vermələrindən, hansı siyasi partiyanı dəstəkləmələrindən asılı olmayaraq, seçki prosesinə qatılmağa, vətəndaş fəallığı nümayiş etdirməyə ruhlandırdığını da yadınıza salıram.**

Afiq MUXTAROĞLU

## GÜRCÜSTAN BAŞ NAZİRİ XARİCƏ TƏHSİL ALMAĞA GEDƏN TƏLƏBƏLƏRƏ XEYİR-DUA VERİB



Baş nazir Georgi Kvirikaşvili Beynəlxalq Təhsil Mərkəzinin həyata keçirdiyi dövlət proqramı çərçivəsində dünyanın aparıcı universitetlərində oxuyacaq 20 tələbə ilə görüşüb.

Görüş qeyri-rəsmi şəraitdə hökumət binasının eyvanında baş tutub.

Bu proqram xaricdə magistr və doktor proqramlarının maliyyələşdirilməsini nəzərdə tutur.

Dövlət maliyyələşməsi alan şəxs öz üzərinə təhsilini başa vurduqdan sonra Gürcüstana qayıtmaq və müvafiq sahədə üç il işləmək məsuliyyətini götürür.

Baş nazir tələbələrin suallarına cavab verib, özünün xaricdə təhsil alması təcrübəsini bölüşərək, gələcəkdə əlaqə saxlamaq üçün onlara elektron ünvanını verib.

Bu il Beynəlxalq Təhsil Mərkəzi 134 tələbənin xaricdə təhsil almasını maliyyələşdirib.

Bu məqsədlə 5,5 milyon lari ayırılıb.

Beynəlxalq Təhsil Mərkəzinin məqsədi beynəlxalq səviyyəli peşəkarlar hazırlamaq, habelə Gürcüstan vətəndaşları üçün aparıcı xarici universitetlərdə təhsil almağa imkan yaratmaqdır.

Keçən il müsabiqə nəticəsində Avropa, ABŞ və Asiyanın aparıcı universitetlərini seçən 115-dən çox adam dövlət maliyyəsi alıb.

Tələbələr üç mərhələdə keçirilən müsabiqə əsasında seçilir. Birinci mərhələdə sənədləşmə yoxlanılır, ikinci mərhələdə xüsusi komissiya elektron müraciətin məzmununun qiymətləndirərək, iştirakçılara bal verir (maksimum 60 bal). Lazımi sayda bal toplayanlar üçüncü mərhələyə – müsahibəyə dəvət olunurlar.

## GYMD RƏHBƏRİ MUSA HACIYEVİN VƏ TƏLƏBƏLƏRİN TÜRKİYƏ SƏLAHİYYƏTLİLƏRİ İLƏ GÖRÜŞLƏRİ OLUB



Xaricdə yaşayan türklər və qohum cəmiyyətlər nazirliyinin (YTB) dəstəyi ilə Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı tərəfindən gerçəkləşdirilən layihə çərçivəsində Uludağ universitetinin tibb fakültəsində bir aylıq təcrübə keçən Gürcüstan universitetlərinin tibb fakültələrində təhsil alan tələbələrin YTB-nin rəhbəri Kudret Bülbül ilə görüşü baş tutub.

YTB rəhbəri görüş iştirakçılarına FETÖ terror təşkilatının mahiyyəti barədə, eləcə də təmsil etdiyi nazirliyin fəaliyyətinə dair məlumat vermişdir. Kudret Bülbül müasir dünyada türk dilinin yeri, bu dilə dünyanın ehtiyacı olması məsələsinə də diqqət çəkmişdir.

Qeyd edək ki, Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının Uludağ universitetinə təcrübə üçün göndərdiyi tələbələr təşkilatın rəhbəri Musa Hacıyevlə birlikdə Türkiyə prezidentinin baş müşaviri professor Seyit Sertçeliklə qısa görüşdə də olublar.

## MARNEULİDƏ QEYRİ-RƏSMİ TƏHSİL AKADEMİYASININ NÖVBƏTİ TƏDBİRİ KEÇİRİLİB

Marneuli bələdiyyəsinin icra hakimiyyətində "One Caucasus" qeyri-hökumət təşkilatı Marneuli yerli özünüidarəetməsinin dəstəyi, "Bölgələrdə dəyişikliklər" – RİTA adlı Polşa-Amerika azadlıq fondunun maliyyə yardımı, Marneuli Mədəniyyət Mərkəzi və TuTu Uşaq Mədəniyyət Mərkəzinin (Bakı) əməkdaşlığı ilə qeyri-rəsmi təhsil akademiyası layihəsi çərçivəsində marneulili pedaqoqlara treininq keçirib.

Görüşün əvvəlində qeyri-rəsmi təhsil akademiyasının proqramı, məqsədləri barədə söhbət açılıb. Akademiyanın iştirakçıları bir-biri ilə tanış olduqdan sonra təhsil sahəsindəki fəaliyyətlərinə dair təcrübə mübadiləsi aparıblar.

Sözügedən akademiya One Caucasus-un nadir tədris vorkşoplarından alınmış təcrübələri nəticəsində yaradılıb. Bunun əsasında tam ilin qeyri-rəsmi təhsil proqramı hazırlanıb. Proqram Marneuli Bələdiyyəsinin kəndlərində həyata keçiriləcək.

Qeyd etmək lazımdır ki, 2016-cı ilin sentyabrından 2017-ci ilin may ayınadək pedaqoqlara özlərini yoxlamaq, tədris texnologiyalarını öyrənmək və öz innovasia layihələrini planlaşdırmaq imkanı verilir. Bunlardan 8 ən yaxşı layihə qeyri-rəsmi təhsil akademiyası tərəfindən maliyyələşdiriləcək.

Turac İBRAHİMOVA

## TBİLİSİDƏ İLK DƏFƏ ELM VƏ İNNOVASİYA FESTİVALI KEÇİRİLƏCƏK



Sentyabrın 17-dən 25-dək Tbilisi beynəlxalq elm və innovasiya festivalına ev sahibliyi edəcək.

Festival elmi tədqiqat və innovasiyaları populyarlaşdırmaq, cəmiyyəti gürcü və əcnəbi elmi uğurlarla tanış etmək, bu sahədə beynəlxalq əməkdaşlığı dərinləşdirmək, tələbələri və məktəbliləri elmi işə cəlb etmək məqsədi ilə keçirilir.

Gürcüstan təhsil nazirliyinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, Festivalda Gürcüstanın və digər ölkələrin özəl və dövlət universitetləri, elmi tədqiqat mərkəzləri, Gürcüstan Milli Elmlər Akademiyası, Gürcüstan kənd təsərrüfatı Akademiyası, Gürcüstanın və digər ölkələrin aparıcı muzeyləri, nəşriyyatları, kitabxanaları iştirak edə bilər.

Festival iştirakçılarını gürcü və əcnəbi ekspertlərdən təşkil olunmuş beynəlxalq komissiya seçəcək.

Komissiya üzvləri yeni elmi uğurlarını təqdim edən, habelə Şota Rustavelinin 850 illik, Vaja Pşavelanın 155 illik yubileyinə, xaricdə kartvelogiyaya və . həsr olunmuş tədbirlər planı təqdim edən gürcü və əcnəbi müsabiqə iştirakçılarına üstünlük verəcəklər.

Festival çərçivəsində müxtəlif ölkələrin elm günləri də keçiriləcək. Avropa nüvə tədqiqatları mərkəzinin (CERN) sərgisi də planlaşdırılır.

# ALLAHA TƏSLİMİYYƏTİN GÖSTƏRİCİSİ – QURBAN

**O turub bu sayımızda hansı mövzuya toxunum deyə düşünərkən, ağlımdan qarşıdan gələn qurban bayramı ilə bağlı bir neçə söz yazmaq keçdi. Düşündüm ki, həm özüm bu haqda olan məlumatlarımı yeniləyərəm, həm də oxucularımıza bəzi məlumatları çatdıraram. Qurban, qurban bayramı günlərində ibadət niyyətiylə müəyyən olunmuş bir heyvanı kəsərək, edilən bir ibadətdir. Qurban, Allah Təalanın lütfünə bir təşəkkürdür. Peyğəmbərimizin Məkkədən Mədinəyə hicrətinin ikinci ilində əmr olunmuşdur.**

Qurban ibadəti İslamiyyətdən əvvəl də vardı.

Cənabı Haqqın dostu olma şərəfinə nail olan İbrahim peyğəmbər (ə.s.) bir əhd etmiş, bir oğlu olarsa onu Allaha qurban edəcəyini söyləmişdir. Aradan keçən zaman içərisində oğulları olmuş, amma o, əhdini necə olmuşsa unutmuşdur. Yuxuda oğlunu qurban etdiyini görmüş və diksinmişdir. Hz. İbrahim bu yuxunu üç gecə görmüşdür. Peyğəmbərlərin yuxusu vəhy olduğu kimi, onlar tərəfindən edilən təbirləri də vəhydir. İbrahim (ə.s.) da yuxusunu, oğlunu qurban etməsi lazım olduğu şəklində yozmuş və beləcə bu təbir də vəhy olmuşdur. Artıq Hz. İbrahimin bu vəhyi yerinə yetirməsi lazım idi.

Əlbəttə bu çox çətin idi, amma Allahdan aldığı vəhyə uymaması daha çətin idi. İbrahim (ə.s) böyük bir imtahan qarşısında olduğunu anladı. Heç tərəddüd etmədən Allaha təslim oldu və vəziyyəti oğlu İsmayıla (a.s) açmağa qərar verdi.

Qurani Kərimdə Allah (c.c) buyurur:

"İbrahim 'Ey Rəbbim, mənə yaxşılardan (bir oğul) lütf et' dedi. Biz də özünə yumşaq xasiyyətli bir oğul müjdələdik. Oğlu yanında qaçacaq çağa gəlincə, 'Ey oğlum, mən səni yuxumda boğazladığımı gördüm, bir düşün, nə deyirsən?' dedi. (İsmayıl) Atacığım, sənə nə əmr olunursa et. İnşaallah məni səbr edənlərdən görəcəksən.' dedi. Hər ikisi də Allaha təslim oldular (Allahın əmrinə boyun əydilər). İbrahim, oğlunu gicgahı üzərinə yatırtdı. Biz də ona belə səsləndik: 'Ey İbrahim, yuxuna həqiqətən sədaqət göstərdin, şübhəsiz ki, bu açıq-aşkar bir imtahan idi.' dedik və ona (İsmayıla qarşılıq) böyük bir qurbanlıq fidyə verdik. Özünə sonradan gələnlər üçün də yaxşı bir ad buraxdıq. Salam olsun İbrahimə. Biz yaxşılıq edənləri belə mükafatlandırırıq. Çünki o, bizim mömin qullarımızdandır."

İbrahim (ə.s), Allahın əmrinə boyun əyərək oğlunu qurban etmək üçün yerə yatırdıqda Cənabi-Haqq, İsmayılın yerinə bir qoyun qurban etməsini əmr etmişdir. Bu, Allahın insanlığa böyük bir lütfüdür. Allah, insanları Hz. İbrahimin vasitəçiliyi ilə insanı qurban etməkdən qorumasaydı insanlar, insan qurban etmək kimi qorxunc bir ənənəyə sahib ola bilərdi və insanları bu qorxunc ənənədən heç kim qurtara bilməzdi.

İbrahim (ə.s) oğlu yerinə Cənabı-Haqqın göndərdiyi qoçu qurban etmişdir. Beləcə qurban Hz. İbrahimdən sünnət olaraq bizə keçmişdir.

Qurban, insanın Allaha yaxınlaşmasına və Onun razılığını qazanmasına vəsilə olan bir ibadətdir. İnsan qurban kəsməklə İbrahim (ə.s.) kimi Allaha və Onun əmrlərinə bağlılığını, lazım olsa Onun razılığını qazanmaq üçün hər fədakarlığa dözəcəyini göstərmiş olur.

Allahın məmnuniyyətini qazanmaq üçün edilən hər şeydə əsas olan yaxşı niyyətdir. Qurbanda da belədir, yaxşı niyyət və ixlas əsasdır. Bu mövzuda Qurani Kərimdə belə buyurulur:

"Onların (qurbanların) nə ətləri, nə də qanları Allaha çatar. Ona yalnız sizin təqvanız çatar." Allah Təala ancaq təqva sahiblərinin etmiş olduqları ibadətləri qəbul edər. Maidə surəsindəki bu ayələr bu mövzunu bir nümunə verərək açıqlayır. Allah Təala buyurur:

"(Ey Məhəmməd) Onlara Adəmin iki oğlu ilə əlaqədar xəbəri haqqıyla oxu. Hər ikisi bir qurban təqdim etmişdilər, birindən qəbul edilmiş, digərindən qəbul edilməmişdi (Qurbanı qəbul edilməyən o birinə).

- Səni öldürəcəyəm, demişdi. Digəri isə:

- Allah, tək özündən qorxanlardan qəbul edər, dedi və davam etdi : "Allaha and içərəm ki, sən məni öldürmək üçün mənə əl uzatsan da, mən səni öldürmək üçün sənə əl uzadan deyiləm. Mən, aləmlərin Rəbbi olan Allahdan qorxuram." dedi.

Görünür ki, qurban kəsənlərdən biri yaxşı niyyətinə və Allahdan qorxmasına görə təqdim etdiyi qurbanı qəbul olunmuş, digəri isə pis niyyətli olduğundan qurbanı qəbul edilməmişdir.

Sevimli Peyğəmbərimiz də bu mövzuda belə buyurmuşdur: "Əməllərin qiyməti ancaq niyyətlərə görədir. Hər kəsin niyyət etdiyi nə isə əlinə keçəcək olan ancaq odur."

Qurban, İslamdakı ictimai yardımlaşma və həmrəyliyin bir başqa nümunəsidir. Hər gün dünyada saysız heyvan kəsilir və bundan əksəriyyətlə imkanlı şəxslər faydalanır. Qurban bayramında kəsilən qurbanlardan isə daha çox yoxsullar və xeyriyyə təşkilatları istifadə edir.

**Peyğəmbərimiz Mədinəyə hicrət etdikdə mədinəlilərin əyləndikləri iki günləri vardı. Peyğəmbərimiz: "Bu günlər nədir?" deyə soruşanda, onlar "Biz cahiliyyətdə bu günlərdə oynayıb əylənərdik." dedilər. Bunun cavabında peyğəmbərimiz: "Bunların yerinə Allah Təala sizə daha xeyirli iki gün verdi: Ramazan bayramı və qurban bayramı" deyə buyurdu. Ramazan bayramı namazı kimi, qurban bayramı namazı da vacibdir və Cümə namazının şərtlərinə tabedir. Yəni Cümə namazını qılmağa borclu olanlar, bayram namazını da qılmağa borcludurlar. Ancaq Cümə namazı fərz, bayram namazı isə vacibdir.**

Hacı BƏKİROĞLU

# ƏHALİ SEÇKİ SİYAHISINDA ÖZÜNƏ DAİR MƏLUMATLARI TERMİNALLARIN KÖMƏYİ İLƏ ALACAQ

Mərkəzi Seçki Komissiyası daha bir yenilik də təklif edir. MSK-dan verilən məlumata görə, əhali seçki siyahısında özü barədə məlumatları artıq sürətli ödəniş terminallarında da yoxlaya bilər.

Seçki siyahısında məlumatları yoxlayan zaman istifadəçi hansı seçki məntəqəsində qeydiyyata düşdüyünü və harada səs verə biləcəyi barədə də məlumat alır.

Bildirilir ki, Gürcüstan miqyasında 7000 sürətli ödəniş terminalında məlumatları yoxlamaq mümkündür.

Şəxsi məlumatları, habelə ailə üzvlərinin məlumatlarını vətəndaşlar voters.cec.gov.ge veb-səhifəsində və "Android" sistemli mobil telefon və planşetlərin köməyi ilə də yoxlaya bilərlər.

MSK-nın məlumatına görə, indiki mərhələdə komissiya əlavə olaraq seçicilərin vahid siyahısını yeniləyib. Siyahıya 59 242 seçicinin məlumatları daxil edilib.

# MSK SEÇKİLƏRDƏ İŞTİRAK ETMƏK ÜÇÜN 45 PARTİYANI QEYDİYYATA ALIB

Avqustun 19-a olan məlumata görə Mərkəzi Seçki Komissiyası oktyabrın 8-də parlament seçkilərində iştirak etmək üçün müraciət edən 64 partiyadan 45-ini qeydiyyata alıb.

Seçki komissiyasının məlumatına görə, 18 partiyanın seçkilərdə iştirak etmək üçün qeydiyyata alınması mümkün olmayıb.

Seçkilərdə iştirak etmək üçün müraciət edən partiyaların qeydiyyatı sentiyabrın 1-də başa çatır. Seçki bloklarının qeydiyyatı avqustun 26-da başlayır və avqustun 28-də başa çatır.

Seçki subyektlərinə məxsus nömrələrin püşkatama mərasimi sentyabrın 2-də keçiriləcək.

# AZƏRBAYCAN 2015-Cİ İLDƏ GÜRCÜSTANDA ƏN BÖYÜK XARİCİ SƏRMAYƏÇİ OLUB

Azərbaycan 2015-ci ildə Gürcüstanda ən böyük sərmayəçi olub. Milli statistika xidməti "Sakstat"ın məlumatına görə, Azərbaycan ölkə iqtisadiyyatına keçən il 550 milyon dollar sərmayə yatırıb, bu da birbaşa ümumi xarici sərmayənin 35%-ini təşkil edir.

Rəsmi statistikaya görə, Azərbaycandan başqa ən böyük sərmayəçi ölkələr beşliyinə 386 milyon dollarla (25%) Böyük Britaniya, 155 milyon dollarla (10%) Niderland, 106 milyon dollarla (7%) Lüksemburq, 73 milyon dollarlıq sərmayə ilə (5%) Türkiyə daxildir. Gürcüstana 46 milyon (3%) sərmayə qoyan Rusiya yeddinci pillədədir.

Keçən il Gürcüstana birbaşa xarici investisiyanın həcmi 1,56 milyard dollardan çox olub ki, bu da 2014-cü ilin dəqiqləşdirilmiş göstəricilərindən 11% azdır.

"Sakstat"ın məlumatlarına görə, 2014-cü ildə Gürcüstana qoyulan birbaşa xarici investisiyanın miqdarı təqribən 1,76 milyard dollar təşkil edib.

# AZƏRBAYCAN ŞİRKƏTİ GÜRCÜSTANDA PULSUZ YOL ÇƏKİR



Gürcüstanda yol çəkilməsinin yeni üsulunun sınağı keçirilir.

Novosti-Qruziya nəşrinin məlumatına görə, Azərbaycanın "AGT" şirkəti Gürcüstan-Ermənistan sərhədində Poniçala-Marneuli-Ququti yolunun 300 metrlik hissəsini sınaq üçün təmənnasız olaraq yeni üsulla çəkəcək.

Bildirilir ki, yeni metod artıq Azərbaycanda sınaqdan keçirilib. Yeni üsulla yolun çəkilməsinin bir kvadratmetri təxminən 5-6 dollara başa gəlir, bu da digər metodlarla müqayisədə iki dəfə ucuzdur.

Sınaq bəyənilərsə yolun çəkilişi "AGT" şirkətinə veriləcək.

# GÜRCÜSTAN HEPATİT C-NİN MÜALİCƏSİ ÜÇÜN 15 MİLYARD DOLLARLIQ DƏRMAN ALACAQ

Gürcüstan hökuməti 2016-2020-ci illər üçün hepatit C-nin xaric edilməsinin Milli srategiyasını təsdiqləyib. Gürcüstan hökumətinin rəsmi məlumatında beşillik strateji planın büdcəsinin 116 milyon laridən çox olması bildirilir.

Bu məbləğin 57 milyon larisi (24 milyon dollardan çoxu) dövlət büdcəsindən ayırılacaq, qalanını isə donar təşkilatlar qarşılayacaqlar.

Hepatitlə mübarizə proqramı çərçivəsində Gürcüstan 15 milyard dollar məbləğində pulsuz dərman alacaq.

Baş nazir Georgi Kvirikaşvili növbəti dörd ildə Gürcüstanda hepatit C-nin kökünün kəsiləcəyinə inandığını bildirib.

Kvirikaşvili son dövrlərdə minlərlə adamın həyatının xilas edilməsindən qürur duyduğunu dilə gətirib.

Bir il ərzində hepatit C ilə mübarizə çərçivəsində 200 minə yaxın adam pulsuz müayinədən keçib.

Keçən ilin aprelindən bu günədək hepatit C proqramına 14 mindən çox adam daxi edilib, beş min nəfərin müalicəsi başa çatdırılıb, pasiyentlərin 92%-i tamamilə müalicə olunub.

# AVQUSTUN 20-DƏN GÜRCÜSTANDA OV MÖVSÜMÜ BAŞLAYIB

Gürcüstan ətraf mühitin mühafizəsi və təbii ehtiyatlar nazirliyi köçəri quşların ov mövsümünün avqustun 20-də başladığını və 2017-ci ilin 1 martınadək davam edəcəyini bildirib.

İstənilən bankda ödənmiş 10 larilik rüsumun qəbzi və Gürcüstan daxili işlər nazirliyinin ov silahını saxlamağa və gəzdirməyə verdiyi icazə sənədi ovçunun üzərində olmalıdır.

Dövlət qoruqlarında və milli parklarda və onlardan 500 metr məsafədə köçəri quş ovu qadağandır. Ov zamanı bitki örtüyünün yandırılması, çöl quşlarının yumurtalarının toplanması və satılması, qəfəs, tələ, cələ, səs siqnalları verən elektron vasitələr, zəhərlər və tüfəngə quraşdırılmış reflektorlardan istifadə olunması qadağan edilir.

Quşların avtomobillə təqib edilməsi də yolverilməzdir. Ov itlərindən, eləcə də təlim keçmiş yırtıcı quşlardan (bu quşların əldə olunmasının qanuniliyini təsdiqləyən sənəd olmalıdır) istifadə etmək olar.

Yivsiz lüləli ov tüfəngi, yivli ov tüfəngi, kombinasiya edilmiş ov tüfəngi, soyuq ov silahı və soyuq atıcı silah və pnevmatik ov tüfəngi vasitəsi ilə ov etmək mümkündür.

# ZƏKİ LƏVƏND GÜMRÜKÇÜ: TÜRKİYƏ VƏ GÜRCÜSTAN ÇƏTİN BİR COĞRAFİYADA ORTAQ DEMOKRATİK DƏYƏRLƏRİ PAYLAŞAN İKİ ÖLKƏDİR



Digər tərəfdən, FETÖ-nün bu çevriliş cəhdinə əl atarkən məqsədi və xəyalı dövləti ələ keçərmək olması ilə yanaşı, bu təşkilata ağıl və dəstək verən güclərin realizmdən bu qədər uzaq olmalarına inanmıram. Çünki, bu güclərin, demokratiya şüurunun cəmiyyətə yayıldığı Türkiyə kimi bir ölkədə artıq çevriliş dövrlərinin bağlanmış olduğunu çox yaxşı bildikləri qənaətindəyəm. Beləliklə, bu qrupların gerçək məqsədinin, FETÖ-dan çirkli bir oyuncaq kimi istifadə etməklə, Türkiyəni bir vətəndaş müharibəsi mühitinə çəkmək və onu belə bir kritik dövrdə müstəqil hərəkət edə bilməyəcək səviyyədə zəiflətmək olduğunu düşünürəm.

Ancaq, məqsəd nə olursa olsun, hədəf düzgün seçilməmiş, əksinə, Türkiyə və türk milləti oynanılan bütün oyunları pozaraq, bu imtahandan müvəffəqiyyətlə çıxmışdır. Necə ki, bu gün qarşılaşdığımız ortaq təhdidlə mübarizə baxımından Türkiyədə misli görülməmiş bir ictimai və siyasi birlik havası hakim olmuş, demokratiyamız 15 İyuldan əvvəlkinə nisbətən daha da güclü və möhkəm təməllər üzərinə oturmuş vəziyyətdədir.

Həqiqətən də, bu gün, çevriliş cəhdinə dəstək verən bütün ünsürlərə ədalət qarşısında layiq olduqları cəzanın verilməsi, irəlidə bir daha bu cür bir cəhdlə qarşılaşılmaması, bütün Konstitusiya və struktur islahatlarının reallaşdırılması, demokratiyanın təməlində dayanan uyğunlaşma mədəniyyətinin tam mənası ilə həyata keçirilməsi baxımından Türkiyədə güclü bir razılaşma var.

**H. B. – Fətullah Gülən kimdir? Onu Türkiyənin xaricində, o sıradan da Gürcüstanda yaşayan qohum birliklərə necə tanıda bilərsiniz?**

Z. L. G. – Fəthullah Gülən, FETÖ-nün kapitanıdır. Uzun illər özünü barış, dialoq və təhsilə həsr etmiş bir din adamı olaraq göstərən bu adamın artıq maskası düşmüş və gerçək üzü ortaya çıxmışdır. Daha açıqca söyləməm lazım olsa, görünüşü və sözləri nə olursa olsun Fəthullah Gülən günahsız insanların üstünə tank və döyüş təyyarələri ilə atəş əmrini verən və yüzlərlə insanın ölümünə gətirib çıxaran bir terroristdir.

Bu gün gəlinən nöqtədə, FETÖ-nün Türkiyədə və xaricdə "xidmət" adı altında icra etdiyi bütün təhsil, iş və yardım fəaliyyətlərinin də tamamilə bu terrorist təşkilatın məqsədlərinə xidmət etmək üçün hazırlanmış bir yalan olduğu açıqca ortaya çıxmışdır. Necə ki, bu xüsus Türkiyədə yalnız hökumətin bir iddiası deyil, zamanında bu təşkilat içərisində üst səviyyəli vəzifələrə gəlmiş olan və indi vicdan əzabı içində etirafçı olan kəslərin verdiyi məlumatlardan da dəqiq bir şəkildə görülə bilməkdədir.

Beləliklə, Gürcüstan da daxil olmaqla bütün dünyada hər kəsin bu adamı və təşkilatını söylədiyi yalanlarla deyil, özlüyündə ortada açıq görünən gerçəklər üzərindən görə bilmələri lazımdır. Bundan 20 il əvvəl verdiyi gizli bəzi vəəzlərdə dövlətin içinə necə və nə məqsədlə giriləcəyini təqibçilərinə anladarkən çəkilmiş olan görüntüləri ortaya çıxan Fəthullah Gülənin və terrorist təşkilatının bizləri artıq aldatmasına və istifadə etməsinə icazə verməməliyik. Çünki, gəlinən bu nöqtədən sonra bu təşkilata göstərilə biləcək ən kiçik bir dözüm, verilə biləcək ən kiçik qatqı belə terrora dəstək verməklə eyni dəyərdə olacaq.

**H. B. – Gülən camaatının iç və xarici bağlantıları mövzusunda bir neçə kəlmə söyləyərsinizmi? Anladığımız qədəriylə bu təşkilatın əlləri böyük bir coğrafiyaya uzanır. Bir çox sahələrdə xarici güclərlə əlaqəsi göz önündədir. 15 iyul sonrası bu əlaqələri qoparmaq imkanı necə qiymətləndirilə bilər?**

Z. L. G. – Əvvəlcə burada bir camaatdan bəhs edə bilməyəcəyimizi, qarşımızda duran quruluşun bir terrorist təşkilatı olduğunu təkrar ifadə etmək məcburiyyətindəyəm. Bəli, görünüş dini bir camaat şəklindədir, ancaq bu quruluşun dini çirkli məqsədləri üçün istifadə etməsindən başqa dinlə heç bir bağı yoxdur. Dini izahetmə və uygulama şəkilləri də xətalı və qüsurludur.

İç və xarici əlaqələr mövzusuna gəlincə, təşkilatın uzun illər boyunca, həm Türkiyədə, həm də xaricdə bir çox adam, təşkilat və hökumətləri, təəssüf ki, özünü yardımsevər bir təşkilat olmasına inandırdığı doğrudur. Ancaq gəlinən nöqtədə Türkiyədə bu mövzuda qərarlı bir yol tutulmuş və bu təşkilatla əlaqəli bütün şəxs və təşkilatlar layiq olduqları cəzanı alacaqdır. Yalnız dövləti deyil, cəmiyyətimizi də bu xərçəngli hüceyrədən təmizləməkdə qərarlıyıq.

Həmçinin, xaricdə də bütün həmsöhbətlərimizə bu təşkilatla əlaqəli təşkilat və quruluşların fəaliyyətlərinin təhlükələri haqqında lazımı xəbərdarlıqlar etməkdəyik. Təşkilatın, xüsusilə Türkiyədəki çevriliş cəhdi ilə ortaya çıxan gerçək üzü qarşısında, heç bir ölkənin artıq bu quruluşa əvvəlki kimi dözüm göstərməyəcəyinə və lazım olan tədbirlər görəcəyinə inanırıq. Necə ki, bu istiqamətdə indidən bir çox ölkədə əhəmiyyətli addımlar atılmağa başlanmışdır.

Ancaq burada daha əhəmiyyətli olan xüsus, bu təşkilatın arxasında duran xarici güclərdir. Çünki bu təşkilatın görünən liderləri və üzvləri ilə 150-dən çox ölkədə 25 milyard dollarlıq bir məbləğlə təhsil və iş fəaliyyəti göstərə bilməsi mümkün deyil. Bu təşkilat, bilərək və ya bilməyərək, bəzi gizli güclərin oyuncağı olaraq istifadə edilməkdədir.

Önümüzdəki dövrdə bu güclərin şəxsiyyətini ortaya çıxarmaq üçün də lazım olan işləri əlbəttə ki, edəcəyik. Bundan başqa, təşkilat nə qədər qanuni görünsə də, onun nəticədə terrorizmə xidmət edən təhsil, iş və yardım fəaliyyətlərinin önünə sədd çəkiləcəyi, bu təşkilatdan mənfəət əldə edən yerli, xarici – hər kəsə ən təsirli cavab veriləcəyi açıqdır.

**H. B. – 15 iyul hadisələri ilə bağlı Dünya Birliyi fərqli görüşlər sərgilədi. Qapılarını Türkiyəyə bağlayan Avropa Birliyi də, Fətullah Güləni müsafir edən ABŞ da Türkiyədə baş verən son hadisələrdə tamaşaçı rolunu oynadı, gerçək bir tərəfdar görünüşü ortaya qoymadı. Bununla əlaqədar fikirlərinizi ala bilərikmi?**

Z. L. G – Təəssüf ki, qərbli dost və müttəfiqlərimiz bu çevriliş cəhdi əsnasında və sonrasında çox pis bir imtahan verdilər. Çevriliş cəhdini sürətli və dəqiq şəkildə qınaya bilməyən, Türkiyədəki demokratik hökumət və təşkilatlarla lazımlı həmrəyliyi sərgiləyə bilməyən, ədalətli mühakimə etmə adı altında çevrilişçiləri sanki qurbanlarından daha çox müdafiə edən kimi görünən, həm beynəlxalq hüququn, həm də dost və müttəfiqliyin şərtlərini yerinə yetirə bilməyən Qərb ölkələri beləcə öz dəyərlərinə xəyanət edən bir vəziyyətə düşdülər.

Bu vəziyyət həm hökumətimiz, həm də xalqımız üzərində son dərəcə mənfi bir təsir buraxmışdır. Ancaq Türkiyə, bu ölkə xalqları ilə paylaşdığımız ortaq çıxar və dəyərlərin şüuru içində məsul bir şəkildə davranmağı davam etdirməkdədir. Bu məzmunda, tətbiq olunan bərabər standartlı tutuma boş reaksiyalar verməkyerinə, bu ölkələrə içinə düşdükləri səhvi göstərən və ortaq gələcəyimiz üçün onları doğru istiqamətə yönləndirməyə çalışan bir yanaşma içində olmağı daha doğru gördük. Nəticədə, səbəbi nə olursa olsun, bu ölkələrin gec-tez etdikləri səhvi anlayacaqlarına və Türkiyə ilə yaxşı əlaqələr içində olmağın əhəmiyyətini başa düşəcəklərinə inanıram.

Bu mənada, qərbli ortaq və müttəfiqlərimizdən tək gözlədiyimiz demokratiya yönlü kəskin bir fikir ortaya qoymaları və FETÖ-yə layiq olduğu terrorist təşkilat olaraq rəftar etmələridir. Burada təbiətilə spesifik olaraq ən önə çıxan xüsus, 17 ildir ABŞ-da olan Fəthullah Gülənin Türkiyəyə qaytarılması və işlədiyi cinayətlərin cəzasını çəkmək üçün ədalət önünə çıxardılmasının təmin edilməsidir. ABŞ-ın bu mövzuda lazımi addımları atmasını gözləyir, əks halda, bunun əlaqələrimizə son dərəcə mənfi təsir edəcəyini amerikalı həmkarlarımıza açıq söyləyirik.

Bu nöqtədə, bunu bir daha açıq şəkildə ifadə etməyim lazımdır ki, Türkiyə bölgədə və dünyada çox güclü bir ölkədir. Bu gün yaşadığı bütün problemlərə baxmayaraq, dünyanın ən sürətli böyüyən beş iqtisadiyyatı arasında iştirak etməkdə, ətrafındakı böhranların həllinə kömək edə biləcək nadir ölkələr arasındadır. Bu mənada, nə Qərbin, nə də digər ölkələrin Türkiyəni qarşılarına ala bilmək kimi bir perspektivi yoxdur. Hamımızın mənfəəti, ortaq dəyər və qanunlarımıza hörmət əsasında əməkdaşlıqdan keçməkdədir.

Türkiyə bu anlayışla, Avropa Birliyinə üzvlüyü strateji bir hədəf olaraq davam etdirəcək, NATO çərçivəsində ortaq müdafiə və təhlükəsizliyimiz üçün bu günə qədər olduğu kimi ən çox iştirak edən ölkələrdən biri olmağa davam edəcək, eyni zamanda Rusiya, İran, Çin, Hindistan və s. kimi bölgəmizin və beynəlxalq cəmiyyətin digər öndə gələn aktyorları ilə də qarşılıqlı çıxara söykənən, bir-birinin alternativi olmayan əlaqələr təsis edəcək.

Türkiyənin bu çox istiqamətli, şəffaf, sadə dəyərlərə söykənən siyasəti bütün dost və ortaqları üçün faydalıdır, həmkarlarımızdan da eyni şəffaf və sadə yanaşmanı gözləməkdəyik.

**H. B. – Cənab Səfir, 7 avqust Demokratiya və Şəhidlər Mitinqi 5 milyon adamın bir araya gəlməsini təmin etdi. Türkiyədə var olan partiyalar - gərəksə iqtidar, gərəksə müxalifət partiyaları tək Vətəndən, tək Türkiyədən yana olduqlarlarını dilə gətirdilər. Xalq demokratiya dedi, xalq tək Türkiyə qışqırdı. Bu vaxt bunu da dilə gətirək ki, mərasimdə Türkiyə bayrağının yanında digər türk dövlətlərinin də bayraqlarının olması qürurverici idi. Bununla əlaqədar sizin fikirlərnizlə də maraqlanırıq.**

Z. L. G. – 7 avqust Demokratiya və Şəhidlər Mitinqi, bir az əvvəl bəhs etdiyim kimi, ölkəmizdə çevriliş cəhdi sonrasında yaranan ictimai və siyasi birliyin ən konkret əks olunmasını təşkil etmişdir. Hörmətli Respublika başçısımızın liderliyilə iqtidar və müxalifət partiyaları liderlərinin iştirakı ilə və hər fikirdən təxminən 5 milyon insanımızın iştirakı ilə reallaşdırılan mitinq, yalnız Türk demokratiya tarixi üçün deyil, bütün beynəlxalq cəmiyyət üçün bir dönüş nöqtəsi olmuşdur.

Türk milləti, 15 iyul çevriliş cəhdi sonrasındakı tutumu ilə və xüsusilə də 7 avqustda ortaya qoyduğu tək ürək halındakı birliyi ilə demokratiyaya olan bağlılığını göstərmiş və ölkəmizdə artıq çevriliş dövrünün bağlandığını ən açıq şəkildə sübut etmişdir. Türk xalqı beləcə, eyni zamanda, bütün beynəlxalq cəmiyyətə də demokratiyadan kənar üsullara necə qarşı qoyulacağını göstərən təsirli bir dərs vermişdir.

Bu mənada, 7 avqustda Türk dünyasının bütün

ünsürlərinin də bizimlə birlikdə yan-yana dayanması və həmrəylik sərgiləməsi, həm ortaq mədəniyyət və dəyərlərimizin gücünü əks etdirmək baxımından, həm də bəhs etdiyim bu dərsin aydın olduğunu göstərməsi baxımından çox mənalı və əhəmiyyətlidir. FETÖ-nün arxasındakı xarici güclərlə birlikdə, bu gün Türkiyə üzərində oynamağa çalışdığı oyunun sabah digər Türk Respublikalarında tətbiq olunmayacağının tək zəmanəti bu dərsin başa düşülməsi və lazım olan addımların qərarlı bir şəkildə atılmasından keçir.

**H. B. – Hörmətli Səfir, Türkiyənin Gürcüstanla gərək tarixi, gərəksə müasir əlaqələri sıx-sıx görülməkdədir. Türkiyə-Gürcüstan əlaqələri strateji tərəfdaşlıq istiqamətində inkişaf etməkdədir. Bir çox sahədə – siyasi, iqtisadi, mədəni, təhlükəsizlik və digər istiqamətlərdə bağlar qurularaq inkişaf etdirilmiş, bir çox ortaq layihələr qurulmuş və davam etməkdədir. Türkiyənin Gürcüstana bu qədər əhəmiyyət verməsi nədən qaynaqlanır?**

Z. L. G. – Gürcüstan həqiqətən də, dost və qonşu olmanın xaricində, Türkiyə üçün strateji bir ortaqdır. Bunun arxasında tarixdən gələn xüsusi bağlarımız, paylaşdığımız ortaq ictimai və mədəni dəyərlər və bu gün, enerjidən iqtisadiyyata, çatdırmadan xarici siyasətə qədər bir çox mövzuda ortaq görüş və çıxarlara sahib olmamız durmaqdadır.

Yalnız xəritəyə baxsanız belə, iki ölkə arasındakı əlaqələrin əhəmiyyətini anlaya bilərsiniz. Bu mənada, Türkiyə Gürcüstanın qərbə, Gürcüstan da Türkiyənin başda Azərbaycan olmaqla şərqə açılan qapısı xüsusiyyətindədir. Xüsusilə enerji və çatdırma dəhlizləri baxımından iki ölkə bir-birini tamamlayan bir xüsusiyyətə malikdir. Başqa cür desək, bu gün İpək Yolunun yenidən canlandırılması və ya Avropa ilə Asiya arasında körpü qurulmasından bəhs ediriksə, bu ancaq Türkiyə və Gürcüstanın ikitərəfli, sonra da Azərbaycanla birlikdə üçtərəfli əməkdaşlığı ilə mümkün ola biləcək.

Necə ki, iki ölkə Gürcüstanın müstəqilliyini yenidən qazanmasından bu yana keçən 25 il ərzində, bu əməkdaşlığı sözdə yox, konkret layihələrlə həyata keçirmiş və aramızdakı qarşılıqlı faydaya əsaslanan əlaqəni daha da möhkəmlətmişdir. Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum təbii qaz boru xətləri ilə bu il ərzində həyata keçəcək Bakı-Tiflis-Qars dəmir yolu bu qarşılıqlı bağlılığın konkret əks olunmalarıdır. Həmçinin, Türkiyənin 2007-ci ildən bu yana Gürcüstanın bir nömrəli ticarət ortağı olması, iki ölkə vətəndaşları arasındakı vizasız səyahət tənzimləməsi və Batumi hava limanının ortaq istifadəsi kimi məsələlər də bu 25 il ərzində gəldiyimiz mühüm nöqtənin nümunələridir.

Eyni şəkildə, Gürcüstanın, Türkiyənin terrorizmlə mübarizədə təsirli əməkdaşlıq sərgiləməsi, Türkiyənin Gürcüstanın torpaq bütünlüyü ilə Avroatlantik məkana inteqrasiya hədəfinə ən güclü dəstək verən ölkələr arasında iştirak etməsi də, iki ölkə arasındakı siyasi uyğunlaşmanı və əməkdaşlığı göstərməkdədir.

Ancaq, daha əhəmiyyətlisi iki ölkənin əməkdaşlığı davamlı olaraq daha irəli aparma mövzusundakı əzm və dayanıqlılığıdır. Necə ki, 2014-cü ilin sonunda qurulması qərarlaşdırılan və keçən ay ərzində Ankarada ilk yığıncağını reallaşdıran Türkiyə-Gürcüstan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası əlaqələrimizə yeni bir yön qazandıracaq və başqa əməkdaşlıq imkanlarının qiymətləndirilməsinə imkan yaradacaq.

Nəticədə, Türkiyə və Gürcüstan çətin bir coğrafiyada ortaq demokratik dəyərləri paylaşan və etdikləri əməkdaşlıq sayəsində yalnız öz mənfəətlərinə deyil, regional və qlobal barış və sabitliyə də xidmət edən iki ölkə mövqeyindədir. Bu əməkdaşlığın Azərbaycanı da ehtiva edən üçtərəfli formatda inkişafı və dərinləşməsi hər kəsin ortaq mənfəətinədir.

**H. B. – Gürcüstan Baş naziri hörmətli Georgi Kvirikaşvilinin Türkiyədəki 15 iyul hadisələrindən bir neçə gün sonra Türkiyəyə səfər etməsi, Türkiyə Baş naziri hörmətli Binalı Yıldırımla və digər türk səlahiyyətlilərilə görüşməsini necə qiymətləndirmək olar?**

Z. L. G. – Baş nazir Kvirikaşvilinin çevriliş cəhdindən cəmi üç gün sonra baş nazir köməkçisi və 6 nazirlə birlikdə Türkiyəyə gəlməsi hər şeydən əvvəl simvolik baxımdan son dərəcə mənalı olmuş və iki ölkə arasındakı dostluq və strateji ortaqlığın açıq bir nişanəsini təşkil etmişdir. Belə ki, baş nazir Kvirikaşvili, çevriliş cəhdindən sonra Türkiyəni ziyarət edən ilk xarici dövlət adamı olmuş və bu çərçivədə türk xalqının könlündə ayrı bir yer tutmuşdur.

Baş nazir Kvirikaşvilinin Türkiyədəki bütün görüşlərində və mətbuat açıqlamalarında, çevriliş cəhdini ən sərt şəkildə qınayaraq, Türkiyədə demokratik yollarla seçilmiş hökumətə dəstəyini bəyan etməsi və Türkiyədə demokratiyanın və sabitliyin qorunmasının Gürcüstan da daxil olmaqla bütün bölgə üçün həyati əhəmiyyətə malik olduğunu vurğulaması ölkəmizdə təqdirlə qarşılanmışdır. Bunlar bəlkə iki dost və ortaq ölkə arasında onsuz da olması lazım olan şeylərdir, ancaq bəzi qərbli dost və ortaqlarımız eyni zamanda səssizlik içində hadisələri izləyərkən Gürcüstanın bu qədər sürətli və dəqiq bir şəkildə mövqeyini ortaya qoyması həqiqətən əhəmiyyətli və mənalıdır.

Ziyarət bu simvolik əhəmiyyətindən əlavə, bir az əvvəl bəhs etdiyim Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası mexanizminin ilk yığıncağına səhnə olması baxımından da tarixi bir xüsusiyyət daşımışdır. Necə ki, yığıncaqda ikili əməkdaşlığın bütün ölçüləri əhatəli bir şəkildə müzakirə olunmuş və mədəniyyətdən əkinçiliyə, iqtisadiyyatdan çatdırmaya qədər bir çox sahədə gələcəyə aid konkret layihələr üzərində durulmuşdur.

Bu çərçivədə, Türkiyə Əkinçilik Nazirinin avqustun 18-də 22 illik bir aradan sonra Tiflisi ilk dəfə ziyarət etməsi, 50-yə yaxın iş adamı ilə birlikdə bir iş forumuna qatılması bu mexanizmin ilk konkret nəticəsidir. Eyni zamanda, yığıncaq əsnasında sərmayələrin qarşılıqlı təşviqi və çatdırma sahəsində imzalanan razılaşmalar da iki ölkə arasındakı iqtisadi əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq xüsusiyyətdədir.

Nəticədə, baş nazir Kvirikaşvilinin ziyarəti hər baxımdan son dərəcə müvəffəqiyyətli keçmiş və əlaqələrimizin onsuz da güclü olan zəminini daha da qüvvətləndirmişdir.

Söhbətləşdi: Hacı BƏKİROĞLU

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ KƏND TƏSƏRRÜFATI SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞI GENİŞLƏNDİRİR



Gürcüstan aqrar sahədə Türkiyənin təcrübəsini mənimsəmək və özünün kənd təsərrüfatı məhsullarının qonşu ölkələrə ixracını artırmaq niyyətindədir.

İyulun 18-də Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və Tbilisiyə rəsmi səfərə gələn Türkiyənin ərzaq, kənd təsərrüfatı və heyvandarlıq naziri Faruk Çelik Gürcüstan və Türkiyənin kənd təsərrüfatı sahəsində əməkdaşlığını müzakirə ediblər.

Tərəflər ticarət-iqtisadi münasibətlərə xüsusi diqqət ayırıblar, gürcü məhsullarının türk bazarına ixracının artırılması perspektivlərini qeyd ediblər. Siyasətçilər Gürcüstanın aqrar imkanları və bu istiqamətdə Türkiyə tərəfinin təcrübəsinin mənimsənilməsinin vacibliyi barədə də fikir mübadiləsi aparıblar.

Kvirikaşvili deyib: "Mən sizin Gürcüstanda olmanızdan, gürcü-türk biznes forumunda iştirakınızdan məmnunam. İki ölkənin çox böyük əməkdaşlıq imkanları var, biz onlardan maksimal şəkildə istifadə etmək üçün qüvvəmizi əsirgəmirik".

Tbilisidə baş tutan gürcü-türk biznes forumunda fəaliyyəti kənd təsərrüfatı ilə bağlı olan 44 türk biznesmeni iştirak edib.

## CO BAYDENİN TÜRKİYƏ SƏFƏRİNİN GÖRÜNƏN VƏ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ

Hal-hazırda Türkiyənin Qərb müttəfiqləri ilə yaşanan soyuq münasibətlər durumunda ABŞ-ın vitse-prezidenti Co Baydenin Türkiyəyə rəsmi səfəri istər bu ölkədə, istərsə də aparıcı dövlətlərin diqqət mərkəzindədir. Səfərin yaxın gələcəkdə necə əks-səda verəcəyi və 15 iyul dövlət çevrilişinə cəhddən sonra Qərb dünyasından Türkiyəni ziyarət edən ilk yüksək çinli dövlət rəsmisinin olması baxımından da əhəmiyyət kəsb edir. Digər yandan, səfərin görünməyən tərəfi hərbi çevrilişə cəhdin arxasında ABŞ-ın xüsusi xidmət orqanlarının "əlinin olması" şübhəsini türk cəmiyyətinin ictimai şüurundan silmək məqsədi daşıyır. Məhz ona görə də, istənilən dövlət başçısı ilə "dil tapma" bacarığı ilə seçilən Co Baydenin bu ölkəyə ziyarətinin məqsədi təkcə Ankara-Vaşinqton münasibətlərinə yox, eyni zamanda Türkiyənin NATO alyansına daxil olan ənənəvi müttəfiqləri ilə hərbi-siyasi bağlarına yenidən ılıqlıq gətirməkdir. Ona görə də, ABŞ-ın ikinci siyasi fiqurnun Ankaraya əli boş təşrif buyurmaması bəllidir.

Məlum olduğu kimi, Türkiyə ABŞ üçün sıradan bir ölkə deyil və regonda ən güclü müttəfiqidir. Türkiyənin regionda və Suriyadakı maraqları ilə yanaşı Fətullah Gülənin Türkiyəyə ekstradisiyası tələbi Co Baydenin Ankara görüşlərinin gərgin keçəcəyinin əvvəlcədən görünən məqamları kimi diqqəti cəlb edir. Səfər çərçivəsində Ağ evin ikinci şəxsini başçılıq etdiyi nümayəndə heyətinin tərkibində peşəkar hüquqşünasların müşaiyət etməsi, onun Türkiyəyə "hazırlıqlı" gəlişindən xəbər verir. Şübhəsiz ki, Ankaranın etibarını yenidən qazanmaq üçün masa üzərinə qismən də olsa, Türkiyəni qane edəcək təkliflər qoyulacağı qabaqcadan güman edilir. Bunlardan ən başlıcası isə Türkiyənin Suriya məsələsində maraqlarının Ağ evin "yol verdiyi" qədər təmin edilməsidir.

Lakin, Türkiyə-Rusiya münasibətlərinin normallaşması və bu münasibətlərin iqdisadi vektordan qarşılıqlı siyasi maraqlara da sirayət etməcəyini söyləmək yanlış olardı. Çevrilişə cəhddən öncəki dönəmdə Qərb müttəfiqlərinin təzyiqinə məruz qalan və siyasi arenanın küncünə sıxışdırılan Türkiyə bəlkə də Qərbin gözləmədiyi bir halda Rusiya ilə "barışaraq" hadisələrin axarını özünün lehinə çevirməyi bacardı. Xarici siyasətdə yaşanan sıxıntıları aradan qaldırmaq üçün Türkiyənin yol xəritəsinin ilk mərhələdə qonşularla "sıfr problem" tezisi anlaşılandır. Rəsmi Ankaranın ilk addımı isə, siyasi şücaət göstərərək Kreml ilə münasibətələrini aydınlaşdırmaq idi.

Son günlərdə Türkiyənin cənub-şərqində baş verən silsilə terror aktlarından dolayı türk hökumətinin Suriyanın şimalında antiterror əməliəyyatlarına başlamasına Vaşınqtonun "yaşıl işıq" yandırmasını və Moskvanın da buna etiraz etməməsini Ankaranın diqtə edən tərəf olması kimi qiymətləndirmək olar. Türkiyənin cənub sərhədlərini sağlamlaşdırmaq və Fərat çayının qərb sahilini nəzarətdə saxlayan İŞİD qruplaşmalarını zərərsizləşdirmək məqsədi ilə Suriyanın şimalına qoşun yeritməkdə məqsədi həm də gələcəkdə bu bölgənin PYD-nin silahli qanadı YPG-nin nəzarəti altına keçməsindən sığortalamaqdır. Türk ordusunun apardığı hərbi əməliyyatlar zamanı YPG-nin Fərat çayının şərq sahilinə çəkiləcəyinə ABŞ-in zəmanət verməsini Vaşinqtonun Ankaraya etdiyi ilk güzəşt saymaq olar.

Türkiyənin ABŞ qarşısında qoyduğu şərtlərdən biri də dövlət çevrilişinə cəhddə şübhəli bilinən Fətullah Gülənin Ankaraya təslim edilməsidir. Hökumətlərarası və beynəlxalq normalara uyğun olaraq cinayətdə şübhəli bilinən F. Gülənin ekstradisiyası üçün tələb olunan sənədlər ABŞ-a təqdim edilsə də, böyük ehtimalla Vaşinqton dəlil yetərsizliyi bəhanəsi ilə Ankaranın bu tələbini yerinə yetirməyəcək. Çünki, ABŞ hələ Türkiyə ilə münasibətlərində bir müddət "Gülən" faktorundan məharətlə istifadə edəcək. Ona qədər də ya "gülən" ölə, ya da "güldürən"...

Sahib MUSTAFA

## QLOBAL İSTİLƏŞMƏ VƏ SU PROBLEMİ

Və budur... Necə gəlib necə keçdiyini anlamadığımız yay fəslinin bitməsinə artıq sayılı günlər qalıb. Çox adam istidən şikayətlənir. Normaldı, eyni adamlar bir neçə ay sonra da soyuqdan şikayətlənəcək. Ancaq nə etmək olar, təbiətin qanunu belədir. Əslində xoşbəxt insanlarıq ki, dörd fəsli də normal yaşaya bilirik. İl boyu istidə, ya da tam tərsi - soyuqda yaşayan insanlar nə etsin bəs? Nə isə... Keçək əsas mövzuya.

Qlobal istiləşmə. Yəqin bu sözə xüsusi ilə yay aylarında televiziya xəbərlərində və ya internet saytlarında tez-tez rast gəlirsiniz. Nədir qlobal istiləşmə və bu mövzu insanları niyə təşvişə salır? İlk öncə onu qeyd edim ki, NASA (“Milli Aeronavtika və Kosmos İdarəsi”) alimlərinin verdiyi məlumata görə bu ilin iyul ayı, 2011-2015-ci ilin iyul ayları ilə müqayisədə 0,18 dərəcə daha isti keçib. Bəlkə bu o qədər də böyük bir göstərici deyil. Lakin nə deyib atalarımız? “Damla-damla göl olar” Bu məqamda sözügedən misal nə qədər yerinə düşdü bilmirəm, amma gerçək odur ki, dünyamız hər il az-az da olsa istiləşir. Bunun sıxıntısını biz çəkməsək də, bizdən sonrakı nəsil ciddi bir qlobal istiləşmə problemi ilə qarşı-qarşıya qala bilər. Bəs uzunmüddətli qlobal istiləşmə nə kimi fəsadlara yol aça bilər? Qlobal iqlim dəyişikliyi quraqlıq problemini də bərabərində gətirəcək. Quraqlıq probleminə bir də dünya əhalisinin sürətlə artmasını əlavə edərsək, ortaya çıxacaq su problemi və bununla birlikdə yaşanacaq su savaşları qaçınılmazdır. Düzdür, inkişaf etmiş ölkələr bu problemi başqa yollarla həll edəcək. Məsələn, dəniz suyunu içməli su halına gətirərək, problemi müəyyən qədər aradan qaldıracaqlar. Artıq başda Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt kimi bəzi ərəb ölkələri olmaqla, İsrail, İspaniya, Yaponiya və ABŞ-ın Kaliforniya ştatı da bu üsuldan istifadə edərək dəniz suyundan içməli su əldə edirlər. Yuxarıda da gördüyünüz kimi, adı çəkilən ölkələr ya çox zəngin, ya da inkişaf etmiş ölkələrdir. Çünki dəniz suyunu duzsuzlaşdırmaq və təmizləmək olduqca bahalıdır və hər ölkənin sahib ola bilməyəcəyi texnoloji vasitələr tələb edir. Daha da önəmlisi dəniz suyundan içməli su əldə etmək üçün öncə bir dəniziniz olmalıdır. Bəs su problemini əsas hansı ölkələr yaşayacaq? Burada iki məqama xüsusi diqqət yetirmək gərəkir. Bir, su problemi yaşayan kasıb ölkələr. İki, su problemi yaşamayan kasıb ölkələr. İndiki dövrdə su problemi yaşayan ölkələrin gələcək zamanda daha ciddi sıxıntılar yaşayacağı, hətta bir stəkan suya görə insanların bir-birini qətlə yetirə biləcəyi ehtimal olunur. İndiki dövrdə su problemi yaşamayan, suyu bol olan ölkələr isə gələcəkdə sırf o bol suyun azarına düşəcəklər. Çünki su həyatdır. Və insanlar daha çox həyatda qalmaq üçün daha çox su əldə etmək istəyəcəklər. Necə ki, indi güclü ölkələr bəzi ölkələrin neftini istismar edir, eyni şəkildə gələcəkdə də basıb suyumuzu əlimizdən alacaqlar.

World Resources Institute (Dünya Ehtiyatlar İnstitutu) tərəfindən aparılan çalışmalar nəticəsində 2040-ci ildə su tələbatını qarşılmaqda çətinlik çəkəcək ölkələrin siyahısı açıqlanıb. Siyahıda Orta Şərq ölkələrinin ciddi risk altında olduğu görünür. Eyni zamanda Azərbaycan 18-ci, Ermənistan 22-ci və Türkiyə 27-ci ən çox risk altında olan ölkə olaraq siyahıda yer alır. Gürcüstan isə siyahıda yoxdur və ən azından yaxın gələcəkdə hər hansı bir su sıxıntısı yaşayacağı ehtimal olunmur. Lakin bizim su sıxıntımız yoxdu deyə düşünüb suyu lazımsız, boş yerə istifadə etməyimiz gələcəkdə bizim də həmin siyahıda yer almağımıza səbəb ola bilər. Unutmayaq, su həyatdır. Həyatımızı və gələcəyimizi boşa xərcləməyək...

Anar RAFİQOĞLU

## STOKHOLMDA BEYNƏLXALQ SU HƏFTƏSİ KEÇİRİLİR




1991-ci ildən təşkil olunan Beynəlxalq su həftəsi avqustun 28-dən sentyabrın 2-dək Stokholmda keçirilir. Bu barədə həftənin təşkilatçılığına cavabdeh olan Stokholm beynəlxalq su institutu məlumat yayıb.

Bu il diskussiya və seminarların iştirakçıları su ehtiyatları və onların sabit inkişafı mövzularına xüsusi diqqət ayırmaq niyyətindədirlər.

Su həftəsinə adətən 100 ölkənin hökumət təşkilatlarının, işgüzar və elmi dairələrin, ictimai və təhsil təşkilatlarının 2-3 min nümayəndəsi toplaşır.

Proqramın təntənəli məqamlarından biri Beynəlxalq su mükafatının təqdim olunmasıdır. Bu il mükafatın sahibi ABŞ-ın Miçiqan universitetinin professoru su mikrobiologiyası üzrə tədqiqatçı Coan Rouz olub. Avqustun 31-də Coan Rouz İsveç kralı XVI Qustavın əlindən billur heykəl və 150 min dollarlıq mükafat çekini alacaq.

Stokholm su institutunun məlumatına görə, dünyada suyun keyfiyyətinin pis olması və diareya səbəbindən hər gün beş yaşınadək təxminən min uşaq ölür. Əvvəlki kimi 2 milyarda yaxın insan üçün işlək tualet əlçatmazdır və bir milyard adamın təmiz su içmək imkanı yoxdur. Diareyanın yaratdığı yüz minlərlə ölüm halından suyun təmizlənməsi, gigeyanın yüksəldilməsi və tualetlərin quraşdırılması ilə qaçmaq olar.

Stokholm su mükafatı fondu 1990-cı ildə təsis olunub və 1991-ci ildən hər il dünya su ehtiyatlarının, ekosistemin və insan həyatının qorunmasındakı xidmətlərinə görə alimlərə, təşkilatlara, elmi idarə və ya müəssisələrə verilir.

Su həftəsində Su gənclik mükafatı da verilir. Bu mükafatla milli seçimlərdə qalib gələrək, final yarışmaları üçün Stokholma gedən 15-20 yaşlı tədqiqatçılar mükafatlandırılırlar. Bu il qalibin adı avqustun 30-da açıqlanıb, o, 28 ölkənin yarışmaçıları arasından seçilib.

## GÜRCÜSTANDA QIZLARA NİSBƏTƏN OĞLANLAR DAHA ÇOX DOĞULUR

2016-cı ilin əvvəlindən Gürcüstanda qızlara nisbətən 2% çox oğlan uşağı dünyaya gəlib. Bu dövrdə ölkədə 37 min 115 körpənin doğulduğu bildirilir. İlin əvvəlindən Gürcüstanda 19 013 oğlan və 18 102 qız dünyaya gəlib.

Doğum səviyyəsinə görə, paytaxt Tbilisi yenə birinci yerdədir. Bəhs olunan dövrdə paytaxtda 16 819 körpə doğulub. İlin əvvəlindən Kutaisidə 3 699, Batumidə 3 638, Rustavidə 1372, Qoridə 1 262, Marneulidə 1 138, Telavidə 943, Senakidə 904, Zuqdididə 844, Zestafonidə 590 uşaq dünyaya gəlib.

## EVTANAZİYA QEYRİ-BƏŞƏRİ BİR YÖNTƏM KİMİ

**Evtanaziya – sağalmaz bir xəstəlikdən əziyyət çəkən şəxsin könüllü olaraq öz həyatına son qoymaq qərarıdır. Ingilis alimi Frensis Bekonun 16-cı əsrdən elmi dövriyyəyə gətirdiyi bu terminin anlamı “asan ölüm”dür. Onun qərarını bu işdə marağı olmayan bir şəxs yerinə yetirməlidir, yəni səni öldürməkdən ötrü burnumun ucu göynəmirdi və ya ürəyimin başı tökülmürdü deyə bilən şəxs. Evtanaziya bir sıra Avropa ölkəsində və ABŞ-ın bir neçə ştatında qanuniləşsə də, dünyanın əksər ölkələrində qanunla qadağan edilib, onu həyata keçirənə qatil kimi ağır cəza verilir. Mən bütün hallarda öldürməyin və öldürülməyin əleyhinəyəm. Nədən ki, bir insan nə qədər uzun bir ömür yaşasa da, məncə, yenə qısadır. Düzdür, insan artımı dünya üçün dəhşətli demoqrafik fəlakət yaradır, antropogen fəaliyyət dünyanın ekoloji düzənini bərbad vəziyyətə salıb deyə, həyacan təbili çalan beynəlxalq, regional və milli təşkilatlar, canım sənə desin, ayrı-ayrı şəxslər də var. Və bu təşkilatların və şəxslərin fikrini qəribliyə salmadan, onların fikirlərinə hörmətlə yanaşaraq, bu qlobal təhlükənin ağıllı bir yöntəmlə həll edilməsinə tərəfdaram.**

Dünyada əhali artımını tənzimləyən və ya tənzimləmək istəyən təşkilatların və ya şəxslərin varlığı danılmazdır. Əhalinin sayının həndəsi silsilə ilə artması da bəşəriyyətə yaxşı nəsə vəd etmir. Bunu bəri başdan söyləməyimiz gərəkdir. Əhalinin sayında baş verən artımla, dünyanın onu təmin edəcək imkanları arasında bir tərs mütənasibliyin olması da gerçəklikdir. Biz bu problemin təkcə insan artımından qaynaqlandığı düşüncəsindən də uzağıq. O üzdən ki, hər ötən gün insanların artan istəkləri və təlabatları fonunda dünyanın imkanlarının məhdudlaşması da labüddür. İnsanların həyata baxışlarında baş verən təbədüllatlar durmadan onların maddi və mənəvi təlabatlarının artmasına, loru dillə desək, xərclərinin-borclarının artmasına nədən olur, yəni problemin kökündə əhalinin artımından daha çox insanın maddi-mənəvi təlabatının dayandığını söyləmək gərəkdir.

Ötən əsrin 70-ci illərindən əhali artımı məsələsinə BMT nəzarət edir. Bu məqsədlə bir çox tədbirlər də keçirdiyi bəllidir. Lakin bütün bu proseslərə nəzarət edən və ya özünü nəzarət edən kimi göstərmək istəyən bu beynəlxalq qurum yer kürəsində ən əvvəl qeyri-bərabər sərvət bölünməsinin qarşısını almağa cəhd etməli, aclıq, səfalət və xəstəlik içərisində çabalayan yüz milyonlarla insanın taleyini düşünməli, bu yüz milyonların varını-dövlətini sömürənlərə dur deməyi bacarmalıdır. Təəssüflə deyim ki, BMT kimi nüfuzlu qurum bunun öhdəsindən gəlmək iqtidarında deyil.

Sərvətin qeyri-bərabər bölünməsi də qoyulan məsələnin həllini çətinləşdirən əsas amillərdəndir. Dünyanın maddi sərvətlərinin get-gedə bir qrupun əlində daha çox cəmlənməsi çoxluğun təlabatının ödənilməsində çətinliklər yaradır. Bu yöndən yanaşdıqda bəşəriyyətin çıxılmaz bir dalana düşdüyü effekti yaranır. Necə ola bilər ki, cəmi 2 473 adamın ümumi sərvəti 7,7 trillion dollara bərabərdir. Həmin 2 473 nəfərin ən kasıbının sərvəti 1 milyard dollardan artıqdır. Bir tərəfdə isə dünya əhalisinin az qala 1/7 hissəsi aclıqla burun-buruna dayanıb. Bax, belə məqamda aranın qarışması, məzhəbin itməsi baş verir, ölüb-öldürmək kimi antibəşəri bir halın ortaya çıxması təbii şəkil alır.




Əhalinin say artımını önləmək üçün bir çox mürtəce siyasi, ideoloji, dini, fəlsəfi cərəyanlar da yox deyil. Bu cərəyanların daşıyıcıları ayrı-ayrı irqlərə məxsus əhalinin qismən və ya tamamilə məhv edilməsi üçün dəridən-qabıqdan çıxırlar. Bu məqsədlə dini-etnik zəmində dünyanın bir çox bölgələrində körüklənən münaqişələrin baş verməsində bu güclərin müstəsna rol oynamalarını da yaddan çıxarmamalıyıq. Əhalinin sayını tənzimləmək üçün lokal və ya qlobal müharibələrin aparılmasının labüdlüyünü isbat etmək istəyənlər, üçüncü dünya ölkələrində əhalinin aclıq, səfalət və xəstəlik içərisində çabalamasını laqeydliklə seyr edənlər, bu azmış kimi bu xalqlar üzərində müxtəlif xəstləkləri təcrübədən keçirənlər, inkişaf etmiş ölkələrdə isə cinsi azlıqların evliliyinə, fahişəliyə və narkomaniyaya rəsmi don geydirənlərin məqsədi insan artımının qarşısını bu və ya digər yolla almaqdır.

Mövzumuzla bağlılığını nəzərə alıb belə bir fakt da diqqətinizə çatdırmaq istəyirəm ki, Yer kürəsində insan artımının qeyri-bərabərliyi bir sıra problemlərin yaranmasına gətirib çıxarır. Demoqrafiya üzrə ekspertlərin bir qismi yaxın 10-15 ildən sonra Yaponiya, Kanada, İtaliya, Fransa kimi ölkələrdə gənc nəslin qalmayacağına dair bədbin fikirlər söyləsələr də, əslində bunun belə olmadığını onların özləri də bilirlər. İnkişaf etmiş ölkələrdə əhali artımının olmaması, zəifliyi fonunda Afrika ölkələrində, eləcə də müsəlmanlar yaşayan bölgələrdə əhalinin sürətlə artımından, demoqrafik partlayışdan da danışmaq mümkündür. Orasını da vurğulayaq ki, əhali artımının sürətlə getdiyi bölgələr həm də müharibə və gərginliklərin cövlan etdiyi, aclığın, səfalətin hökm sürdüyü bölgələrdir. Bütün bunlar da düşünülmüş şəkildə əhali artımının qarşısının alınmasına hesablanmış yöntəmlərdir və artıq bunu gizləmək belə mümkün deyil.

**... sonda onu diqqətinizə çatdırım ki, məncə, tənzimləmənin digər bir yöntəmi evtanaziya, yəni könüllü şəkildə özünə ölüm hökmü çıxarmaqdır. Evtanaziyanın suisiddən, yəni intihardan cəmi bircə fərqi var ki, hökmü sənin əvəzinə başqası icra edir. Bu vasitəni durmadan cəmiyyətin qafasına yeridənlər, inanmıram ki, öz həyatlarına könüllü şəkildə son qoymaq istəyələr, əksinə, onlar bu dünyada bir neçə dəqiqə artıq yaşamaqdan ötrü sərvətlərindən belə keçməyə üstünlük verərlər. İstənilən halda insan həyatına son qoyulmasına qarşı olduğumdan bunu nə dərəcədə bəşəri bir addım saysalar da, mən bu yöntəmi qəbul edə bilmərəm...**

A. MUXTAROĞLU

# ƏYRİQARDA PYEDESTAL MÖVSÜMÜ
## (evfemizm)

**Dədə Mirzə Tüpdağıdan (heyif, Koroğlu dəlilərinin dastanə, az-az da dəcəl-xata adlarına!) elə qışqırır, sanki ağıl dişini çıxardırlar: mənə kürsü gətirin! – əlbəttə, xitabət kürsüsünü nəzərdə tutur – tribunanı mənə verin! natiqlərin oturduqları yerdə təkcə mən oturmalıyam! və sairə və ilaxır... İmkanı olsaydı, bəlkə kürsiyi-hökumətdə (ərşin altındakı göy təbəqəsi) də oturardı...**

Hara gedirsə, arxasınca pyedestal da daşıtdırır. Nə qədər dil tökürlər ki, ay bəni-adam, axı pyedestal əsasən qalib idmançıların mükafatlandırılması üçündür; üçpilləli olmağı da elə bu sərhesab səbəbdəndir. Yəni ilk üç yeri tutan pyedestala qalxmaq haqqı qazanır. Heç olmasa, Rio – 2016 Olimpiya oyunlarına baxaydı. Heç olmasa, yüz metrlik məsafəyə qaçış üzrə üçqat Olimpiya çempionu Yamaykalı Useyn (Süsən-Sünbüldə onu, bəlkə də daha çox əzizləmə mənasında, Hüseyn, ya da yerli ladda sadəcə olaraq Söyün çağırırlar) Bolta pyedestalın necə yaraşdığını görəydi! Mükafatlar təqdim olunandan sonra ikinci-üçüncü yerləri tutan idmançıları da qollarından tutub birinci pilləyə qaldırır ki, həm Haqqa, həm də idmansevərlərə xoş getsin... Amma Dədə Mirzə Tüpdağıdan bir bütöv pyedestala təkcə də sığmır! Bu bəhanəsi də budur ki, bir halda Nəsimi iki cahana "sığmayıb", o da bir mirzələr mirzəsi olaraq niyə bir pyedestala sığsın?

Doğrudur, pyedestalın abidə-heykəl üçün özül-altlıq anlamına gələn mənası da var. Bəlkə də Dədə Mirzə Tüpdağıdanın pyedestalla-postamentlə bağlı cuşi-xüruş cüvəllağılığı da elə buralardan qaynaqlanır: yəni hər vasitə ilə yüksək "ictimai nüfuz" sahibi olduğunu nəzərə çarpdırır. Axı Süsən-Sünbüldə indiyədək heç kəsə heykəl qoyulmayıb. Baxmayaraq ki, Sovetlər dönəmində kənd klubunun həyətində Leninin heykəli üçün postament düzəltdilər, amma heykəli Süsən-Sünbülə gətirib çıxarana qədər heykəltəraş da dünyasını dəyişdi, Sovetlər də yıxıldı. Vahid Vəhdət Dünyasında nələr olmur?

Amma Dədə Mirzə Tüpdağıdanın gözünü dikdiyi üstü boş postament hələ durur; bir az üstünü toz-torpaqdan təmizləmək lazımdır. Vəssalam!

Süsən-Sünbülün bir "müstəsnalığı" Dəllərə də, Sarvana da, Qaraçöpə də bəllidir: burada az qala əyyami-qədimlərdən üçcə nəfər mirzə (əlbəttə, qələm sahibi mənasında) bir pyedestala sığışmır ki sığışmır! Bəziləri bunu sadəcə olaraq qəzavü-qədərlə bağlayırlar; yəni belə məlum olur ki, heç ərşi daşıyan mələklər də Süsən-Sünbül mirzələrinin pyedestal problemini yoluna qoya bilməzlər. Nə deyim...

Amma bu yerdə hörmətli Sabir Rüstəmxanlıdan pyedestalla bağlı sitat gətirməsəm ibrətgötürmə insafsızlıq olar.

Sabir müəllim şair Çingiz Əlioğlunun "Qapı" adlı şeirlər kitabına ön sözünün bir yerində deyir: "...bir dəstə şairlə İlisuya gedirdik, yolüstü pyedestala bənzər bir sütun diqqətimizi cəlb etmişdi və o dəqiqə mübahisə düşmüşdü: əsl şair heykəlinin yeridir! Pyedestal bir heykəl üçündü, amma zarafatla hərəmiz bir yandan bu kürsüyə dırmaşdıq. Məlum oldu ki, bu pyedestala hamımız yerləşə bilirmişik". Və Sabir Rüstəmxanlı ilk növbədə Nüsrət Kəsəmənlinin (Allahın rəhmətini diləyirəm), Çingiz Əlioğlunun və özünün ömür boyu nəinki bir pyedestala, hətta bir iynə ucuna da sığa bilən dostluğunu və kürsü davası, şöhrət birinciliyi olmayanda yüksəkliyi bölüşə bilmək bacarığını vurğulayır.

Amma Dədə Mirzə Tüpdağıdan...

Dünən eşitdim ki, kənddə yeni pyedestal düzəltdirir və onu da düz Əyriqarın zirvəsinə çıxartdırmaq fikrindədir. Dedim ki, yəqin hər il düzilqarlı Əyriqarın ətəklərindəki Armudlu yaylağında (yayla ilə yaylağı qarışdırır) keçirilən elat bayramı üçün hazırlatdırır. Sonra da arada-sırada ağlıma gəldi ki, axı oralarda tribunadan istifadə edirlər (heç olmasa tribunaya sığaydılar). Necə çaş-baş qalmayasan?..

Mirzə Qələm səhər-səhər Feysbuk səhifəsində soruşur ki, bu "pyedestal adam"dan canımız nə vaxt qurtaracaq görəsən? Bəlkə onu elə diri-diri quruca adı qalan klubun həyətindəki üstü boş postamentin üstünə qoyaq?

Onu bilirəm ki, Dədə Mirzə Tüpdağıdan ona poema həsr eləmiş Mirzə (Dədəsiz) Tanrıtanımazla bərabər, pyedestal da maşında, sabah Əyriqara çıxır. Ağlına hardan gəlsin ki, Əyriqar özü elə ən böyük pyedestaldır: çox mənasız mənsəb sahibini dərəaşağı dığırladan pyedestal...

P.S.

Dədə Mirzə Tüpdağıdan Əyriqara istər pyedestal deyil, lap Babil qülləsi qoydursun, yenə də Allaha yaxın olmağın yolunu tapa bilmədi. İmam Sadiq (ə) də deməmişdimi: "Allaha ən uzaq olanlar dikbaşlardır".

**Misilləmə misal üçün, burası da var ki, Səmərqənd, Samara, Santa-Barbara, ya da Süsən-Sünbül pyedestalının bədii tərtibatı arazbarı az da ola bilər; yəni baxır materialına! Amma gərək yazı adamının, qələm sahibinin özünün "bədii tərtibat"ı yerli-yerində olsun. Hansı "material"dan yoğrulmağının fılhəqiqət fərqi varmı?..**

İBRAHİMXƏLİL

# TÜRK ÖLKƏLƏRİ ÜÇÜN ÜMUMİ DƏRSLİK YARADILDI VƏ ÜMUMİ TELEKANAL HAZIRLANIR

XV əsrədək olan dövrü əhatə edən türk ölkələri üçün ümumi dərsliyin hazırlanması başa çatıb. Bu barədə məlumatı Türk Şurasının baş katibi Ramil Həsənov verib.

Onun sözlərinə görə oktyabrda üzv ölkələrin təhsil nazirlərinin görüşü olacaq, əgər dərslik qəbul edilərsə, dərslik noyabrda Bişkekdə keçirilməsi planlaşdırılan prezidentlərin sammitinə təqdim ediləcək.

International Turkic News Channel adlanan ümumi türk televizyasının yaradılması məsələsinə aydınlıq gətirən Ramil Həsənov onun artıq təsdiq olunduğunu, lakin neft və qazın qiymətinin düşməsi ilə Azərbaycan və Qazaxıstan tərəfindən onun maliyyələşdirilməsində çətinlik yaratdığını bildirib.



Baş katib televiziyanın üzv dövlətlərdən dördünün rəsmi dilində, eləcə də rus və ingilis dilində verlişlər hazırlayacağını qeyd edib. Bununla belə, R. Həsənov kanalın açılış tarixi və televiziyanın mənzil qərargahının harada yerləşəcəyi barədə dəqiq məlumat verməyib.

# AZƏRBAYCAN MÜƏLLİFLƏRİNİN ƏSƏRLƏRİ GÜRCÜ DİLİNDƏ NƏŞR OLUNUB









Bu günlərdə Tbilisidə Gürcüstan Yazıçıları Milli Akademiyasının xətti ilə "Universal"nəşriyyatında gürcü dilində üç kitab: Azərbaycanın realist sənətkarı Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayələr kitabı, Azərbaycanın tanınmış alimlərindən biri, ədəbiyyata şeirlə gələn Məhərrəm Gasımlının (Orxan Paşanın) "Yağmur qoxusu" şeirlər kitabı, xalq şairi Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" adlı romanı işıq üzü görmüşdür. Bu kitabların gürcü dilinə tərcümə olunmasında, nəşrində böyük əməyi olan Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin üzvü Mirzə Məmmədoğlu əməkdaşımızla söhbətində demişdir:

Bu kitabların nəşrini Tiflis ədəbi mühitində mühüm hadisə kimi dəyərləndirmək olar. Cəlil Məmmədquluzadənin bir neçə dildə hekayələr kitabı işıq üzü görsə də, gürcü dilində ilk dəfə nəşr olunur. Onun "Poçt qutusu" adlı hekayəsi ilk dəfə görkəmli alim Əziz Şərif tərəfindən 1934-cü ildə "Türk ədəbiyyatı" toplusunda özünə yer tapmışdır. Bu hekayəni Əziz Şərifin özü tərcümə etmişdir. Sonralar 1968-ci ildə Tbilisi Dövlət Universitetinin nəşr etdiyi Azərbaycan şair və yazışılarının əsərlərindən nümunələrin verildiyi ədəbiyyat müntəxəbatına Cəlil Məmmədquluzadənin "Poçt qutusu" və "Saqqallı uşaq" hekayələri salınmışdır. "Poçt qutusu"nu Leyla Eradze, "Saqqallı uşaq"ı isə Nodar Canaşiya tərcümə etmişdir. Onu da qeyd etmək lazımdır ki, eyni hekayənin tərcüməsində Əziz Şərifin tərcüməsi daha uğurludur. Bu kitabın nəşr olunma ideyası və ön sözü akademik İsa Həbibbəyliyə məxsusdur. Kitaba Əziz Şərifin yazdığı ön sözün Cəlil Məmmədquluzadəyə aid olan hissəsi də daxil edilmişdir. Kitabın redaktoru filologiya elmləri doktoru, professor İrma Ratiani, nəşriyyat redaktoru mən və tanınmış gürcü yazıçısı Nariman Yaşağaşvilidir. Tərcümə gənc yazıçı Almaz Mirzəoğluna məxsusdur. Kitabda Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığını əks etdirən şəkillərə də yer verilmişdir.

Məhərrəm Qasımlının "Yağmur qoxusu" şeirlər kitabında müxtəlif səpkili şeirləri verilmişdir. Bundan öncə onun silsilə şeirləri "Literaturuli Sakartvelo" qəzetində və "Amer-İmer" ədəbi jurnalında dərc olunmuşdur. Şeirlərin sətri tərcüməsini mən, bədii tərcüməsini istedadlı gürcü şairi, bu yaxınlarda dünyasını dəyişən Avtio Çxaidze etmişdir. Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanının tərcüməsi gürcü yazıçısı Aleko Qabeliyaya məxsusdur. Onu da qeyd etmək lazımdır ki, Avto Çxaidze və Aleko Qabeliya bir neçə il əvvəl Məmməd Arazın gürcü və Azərbaycan dilində nəşr olunan kitabının da tərcüməçiləridir.

İnamla demək olar ki, bu kitablar gürcü oxucuları tərəfindən maraqla qarşılanacaq.

"Yeni Yol"

# BATUMİ BOTANİKA BAĞINDA KİTAB GƏMİSİ ORTAYA ÇIXDI

Gürcüstan Milli kitabxanasının "Kitab yuvası" layihəsi Batumiyə də çatıb.

Bütün arzulayanların kitab qoymaları, habelə onları müvəqqəti olaraq oxumağa götürmələri üçün qutular artıq Tbilisinin Mziuri parkında və etnoqrafiya muzeyinin ərazisində, habelə Kutaisi, Ozurqeti, Çxoatauri və Telavi şəhərlərində quraşdırılıb.



Batumi üçün kitab qutusu quş yuvası formasında deyil, xüsusi olaraq gəmi şəklində hazırlanıb.

Milli kitabxanananın bu layihəsinin məqsədi gənclər arasında mütaliəni populyarlaşdırmaqdır.

Layihə üçün ilk kitabları Milli kitabxananın rəhbəri Georgi Kekelidze şəxsən özü seçib. Bu əsasən bədii ədəbiyyatdır. Bütün bu kitablar vətəndaşların verdikləridir, onlar kitabları Gürcüstanın əsas kitabxanasına da havayı olaraq bağışlayırlar.

# GÜRCÜSTANIN MÜSƏLMAN İCMASINA 15 MƏSCİD VERİLDİ

Dini məsələlər üzrə Dövlət agentliyinin əmlak və maliyyə məsələləri üzrə məsləhət komissiyasının iclasında Gürcüstan müsəlman icmasının müzakirəyə təqdim etdiyi 16 məsələnin hamısı da müsbət həll edilib. Bu barədə isk.ge məlumat yayıb.

Məlumatda Gürcüstanın müsəlman icmasına 15 məscid verildiyi və bir maliyyə məsələsi üzrə müsbət qərar çıxarıldığı bildirilir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*31 avqust 2016-cı il*
*№016 (30)*

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## "AZƏRBAYCANFİLM" AZƏRBAYCANLI GƏNC OĞLANLA GÜRCÜ QIZININ MƏHƏBBƏTİNƏ AİD FİLM ÇƏKİB




Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında "Köşk" adlı tammetrajlı bədii filmin çəkilişləri başa çatıb. Bu barədə Azərbaycan mədəniyyət və turizm nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Romantik komediya azərbaycanlı Azər və gürcü qızı Leylanın məhəbbətindən bəhs edir. Filmin çəkilişləri Azərbaycanda və Gürcüstanda həyata keçirilib.

Filmin ssenarisi İmir Məmmədli və Mirsadıq Ağazadəyə məxsusdur. "Köşk"ün quruluşçu rejissoru Mirsadıq Ağazadə, quruluşçu operatoru Elxan Rüstəmov və Ruslan Ağazadə, quruluşçu rəssamı Əziz Məmmədov, bəstəkarı Rauf Əliyev, icraçı prodüsseri Azər Quliyev, prodüsseri isə Müşfiq Hətəmovdur.

Filmdə əsas rolları Sənan Əlləz, Nini İaşvili, Zaza Asanişvili, Kamran Şahmərdan və başqaları oynayırlar.

## BBC TELEKANALI GÜRCÜSTAN HAQQINDA FİLMLƏR ÇƏKİR



Dünyada milyonlarla tamaşaçı Gürcüstanın qədim mədəniyyəti və tarixi ilə tanış olmaq üçün imkan qazanıb.

Britaniyanın BBC telekanalı Gürcüstan haqqında dörd film çəkməyə hazırlaşır.

Bu məqsədlə Edenwood Productions şirkətinin kinematoqrafçılar və prodüsserlər qrupu artıq Gürcüstandadırlar və filmlərin çəkilişlərinə başlayıblar.

Filmlərə düşəcək yerləri kino layihənin baş prodüsseri Lidiya Konvey müəyyənləşdirir.

Gürcüstan Milli Turizm İdarəsindən bildiriblər ki, çəkiliş qrupu artıq Tbilisi, Msxeta, Uplissixe, Borjomi, Rabat, Vardziya, Sxaltubo, Acara, Svaneti, Zuqdidi, Martvili, Kutaisi, Qori, Kaxeti, Ananuri və Kazbeqidə olub.

Dörd filmin hər biri bir saatdan artıq davam etməyəcək. Kino BBC-nin efirində nümayiş etdirildikdən sonra, filmlərə BBC və The Telegraph-ın saytlarında baxmaq mümkün olacaq.

## AZƏRBAYCAN YIĞMASI ALPAQUT ÜZRƏ DÜNYA KUBOKUNUN QALİBİDİR

Azərbaycan yığması Gürcüstanın Ozurgeti şəhərində keçirilən alpaqut üzrə birinci dünya Kubokunun qalibi olub. Bu barədə Azərbaycan Alpaqut Federasiyasının (AAF) mətbuat xidməti məlumat yayıb.

Dünya Alpaqut Federasiyası və Gürcüstan Alpaqut Federasiyasının təşkil etdiyi yarışlarda Azərbaycan, Türkiyə, İran, Qırğızıstan, Gürcüstan və Qazaxıstan idmançıları iştirak ediblər.

Azərbaycan idmançıları ümumi hesabda 51 medal (24 qızıl, 22 gümüş və 5 bürünc) qazanıblar. Yarışların ən maraqlı məqamlarından biri Elvin Məmmədovun kikboksinq üzrə üçqat dünya çempionu Temur Qlonti üzərində qələbə çalması olub.

AAF-ın prezidenti Aqil Acalov azərbaycanlı idmançıların hazırlığını yüksək qiymətləndirib.



Alpaqut öz qaydaları, ənənələri və fəlsəfəsi olan qədim türk idman növüdür. "Alpaqut" sözü türk dillərində Böyük döyüşçü anlamını verir.

Trend-in məlumatına görə, tədqiqatçılar bu döyüş sənəti növünü Azərbaycanda aşkarlayıblar və güman olunur ki, Çin kunq-fu döyüş sənətindən olduqca qədimdir.

## FUTBOLDA YENİ SİSTEM TƏTBİQ OLUNUR

FİFA prezidenti Canni İnfantino yaxın gələcəkdə futbolda yeni sistemdən istifadə olunacağını deyib.

"Blick" nəşrinə açıqlama verən FIFA-nın rəhbəri sentyabrın 1-də İtaliya ilə Fransa arasında keçiriləcək yoldaşlıq oyununda ilk dəfə videotəkrarın yeni texnologiyasından istifadə ediləcəyini deyib:

"Biz artıq 1904-cü ildə yaşamırıq. Mümkün qədər səhv qərarları aradan qaldırmalıyıq. İnanıram ki, 2018-ci il dünya çempionatına qədər videotəkrar sistemindən tam istifadə edəcəyik".

Qeyd edək ki, Dünya Çempionatı-2018-də digər yeniliklər də gözlənilir.

## GÜRCÜSTAN BALI TUTANXAMON DÖVRÜNÜN BALINDAN QƏDİMDİR



Gürcüstan ərazisində daha bir nadir tapıntı üzə çıxarılıb. Borjomi rayonunun Sakire kəndi yaxınlığında alimlər bal aşkarlayıblar. Ekspertlərin rəyinə görə, bu bal eradan əvvəlki üçüncü minilliyə aiddir.

Bu tapıntı həm dünya tarixində, həm də xronologiyada çox şeyi dəyişə bilər. İndiyədək Tutanxamonun sərdabəsindən aşkar olunmuş balı ən qədim bal sayırdılar. Bu versiyanı gürcü alimlərinin versiyaları və burada aşkarlanan yeni tapıntı alt-üst etdi.

Gürcüstan Milli muzeyi elmi laboratoriyasının rəhbəri İrina Qambaşidze bəyan edib: "Arxeoloji qazıntılar nəticəsində balın ayinə uyğun olaraq ölü ilə birlikdə basdırıldığı aydın olub".

## SİNQAPURDA FANTASTİKA GERÇƏKLİYƏ ÇEVRİLDİ




Sinqapur küçələrində artıq dünyada ilk pilotsuz taksilər görünməyə başlayıb. Hələlik cəmi altı pilotsuz taksi fəaliyyət göstərir, ilin sonunadək onların sayının on ikiyə çatdırılacağı nəzərdə tutulur. nuTonomy şirkəti insanların idarə etdiyi bütün taksilərin tamamilə pilotsuz taksilərlə əvəzlənməsini 2018-ci ildə həyata keçirməyi planlaşdırır. Şirkət sınaq mərhələsinin uğurla başa çatmasından sonra minlərlə müştərisinin olacağını gözləyir. Layihə üçün məhz Sinqapurun seçilməsi müyyən səbəblərlə bağlıdır. Buranın iqlimi münasibdir, infrastruktur kifayət qədər inkişaf edib və yol hərəkəti qaydalarına əməl olunmasının səviyyəsi yüksəkdir.

Qeyri-adi taksidən istifadə edənlərin fikirləri də maraq doğurur. İnsan tərəfindən idarə olunmayan bu nəqliyyat vasitəsi onlarda narahatlıq yaradıb, əsəbləşmələrinə səbəb olub. Yeni taksilərdə sükan özbaşına hərəkət etdiyindən sərnişinlər avtomobili kabusun idarə etdiyi hissini yaşayıblar.

## PƏRPƏTÖYÜNÜN FAYDALARI

Qədim Misirdə pərpətöyündən şəfalı bitki kimi istifadə edirdilər. Ərəblər orta əsrlərdə pərpətöyünü yüksək qiymətləndirərək "bəzəkli tərəvəz" adlandırırdılar. Qədim Yunanıstanda dərman bitkisi kimi tanınırdı. Bu fakt Hippokratın əsərləri də təsdiqləyir. Böyük Plini digər bitkilər arasında məhz pərpətöyünü "istifadəyə məcbur" hesab etmişdi. İbn Sina pərpətöyünü təbii dərmanlardan biri kimi qiymətləndirirdi.



Pərpətöyünün qanama xəstəliklərində və qəbzlikdə çox faydalı olduğunu qeyd edən həkimlər, qanı təmizlədiyini, sinir və beyin yorğunluğunu sakitləşdirdiyini, böyrəkdəki qum və daşı tökdüyünü, şəkər xəstələrinin susuzluğunu azaltdığını, arıqlamada təsirli vasitə olduğunu irəli sürürlər.

Pərpətöyünün tərkibi A, B1, B2, K, PP vitaminləri, üzvi turşular, qlükoza, saxaroza, zülallar, qlaktoza, turşular, kalsium duzu, kalium, maqnezium, manqan və digər faydalı maddələrlə zəngindir. Pərpətöyündən qaraciyər xəstəliklərində (iltihabında), öd qusmalarında istifadə edirlər. Pərpətöyünün tərkibindəki noradrenalin mərkəzi sinir sistemini stimullaşdırır və tonusu artırır. Yarpaqlarından zəhərli ilan və həşəratların sancması zamanı antioksid maddə, qaraciyər və böyrək xəstəliklərində isə sidikqovucu kimi istifadə olunur. Pərpətöyünün cövhəri ilə ağız yaxalamaq damaq iltihabına səmərəlidir. İrinli yaraların müalicəsində təmiz yuyulmuş pərpətöyünü yaranın üzərinə qoymaq lazımdır.

**Təsisçi:**
*"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"*

***Redaktor*:** **Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:** **Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.